


Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam...

Ümummilli Lider HEYDƏR ƏLİYEV

Qəzet 1929-cu ildən nəşr olunur. Təsisçi: Bakı Dövlət Universiteti — 29 avqust 2025-ci il

# BAKI UNİVERSİTETİ

MİLLİ TƏRƏQQİ ELM VƏ TƏHSİL OCAĞINDAN BAŞLAYIR



**Azərbaycan ədəbiyyatının ölməz simvollarından biri - Bəxtiyar Vahabzadə** ➔Səh.3

**BDU-da Azərbaycanda "Ərəb dili ayı"nın açılış mərasimi** ➔Səh.5

**BDU-da "Elsevier"in Türkiyə və Mərkəzi Asiya üzrə nümayəndəsi ilə görüş keçirilib** ➔Səh.5

**İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Bartın Universitetinin rektoru ilə görüşüb** ➔Səh.6

**BDU-da "R.M 90" proqramlaşdırma müsabiqəsi keçirilib** ➔Səh.8

**BDU əməkdaşları təhsil sərgisində abituriyentlər üçün infossesiya keçirib** ➔Səh.8

**Azərbaycan məktəbliləri XVIII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında uğur qazanıblar** ➔Səh.9

**Dünya Mediasında Qərəzli İnformasiya Siyasəti: Səbəblər və Təsirlər** ➔Səh.10




**BDU-da Pakistan səfiri və NUST Universitetinin rəsmisi ilə görüş**

➔Səh.3



**Türkiyənin Azərbaycandakı səfiri BDU-da olub**

➔Səh.4



**BDU-da Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının nümayəndələri ilə görüş**

➔Səh.4



**Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffer Şeker BDU-da**

➔Səh.4



**BDU-da "Qafqazda və Mərkəzi Asiyada ərəb dilinin tədrisinin tarixi" mövzusunda beynəlxalq forum keçirilib**

➔Səh.6




## Ana dilimiz – milli sərvətimiz, iftixarımız

***Milli kimliyimizin açar sözü, bulaq suyu kimin saf və axıcı, tariximiz qədər zəngin...Bu, bizim Ana dilimizdir. Milli sərvətimiz, müstəqilliyimizin əsas sütunlarından biri. Dilimizin ən böyük vurğunu və hamisi, Ümummilli Lider Heydər Əliyevin də dediyi kimi, "Ana dilimiz müstəqil Azərbaycanın, Azərbaycan xalqının ən böyük milli sərvətidir.*** Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik. İnkişaf etmiş zəngin dil mədəniyyətinə malik olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalmış bu ən qiymətli milli sərvəti hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir. Bu onun müqəddəs vətəndaşlıq borcudur".

Avqustun 1-ri Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür. Ümummilli Lider Heydər Əliyevin imzaladığı 9 avqust 2001-ci il tarixli 552 nömrəli Fərmanla hər il avqust ayının 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd edilir.

Ulu Öndər həmin fərmanı latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqustunda bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq imzalayıb.

Sovet dövründə yaranmış əngəllərə baxmayaraq, sarsılmaz təməlləri olan Azərbaycan dili mövcudluğunu qoruya bilib. 1945-ci ildə Azərbaycan Elmlər Akademiyasının tərkibində müstəqil Dilçilik İnstitutunun yaradılması dilçiliyimizin bir elm kimi inkişafına ciddi təkan verib. Sonrakı illərdə Azərbaycan dilinin mövcud təhlükələrdən qorunması və gələcək nəsillər üçün mühafizə edilməsi istiqamətində Ulu Öndər Heydər Əliyevin xidmətləri misilsizdir.

1969-cu ilin iyul ayında respublikanın rəhbəri seçilən Ümummilli Liderin cəmi bir neçə aydan sonra Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində nitq söyləməsi həmin dövr üçün böyük bir hünər, cəsarət olmaqla bərabər, onun milli dəyərlərə, soy-kökə bağlılığının bariz nümunəsi idi. BDU-nun 50 illik yubileyindəki nitqindən başlayaraq Ulu Öndər o dövrdə bütün rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər şəxslərə də tövsiyə edirdi.

1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası təsdiq edilən zaman oraya dövlət dili haqqında maddənin salınmaması ilə heç cür barışmayan Ümummilli Lider bu məsələdə sonadək öz prinsipial mövqeyini göstərib. 1978-ci il aprelin 2-də doqquzuncu çağırış Ali Sovetin Azərbaycan Sovet Sosialist Respublikası Konstitusiyasının layihəsi və onun ümumxalq müzakirəsinin yekunlarına həsr olunmuş yeddinci sessiyasında məruzə ilə çıxış edən Ulu Öndər Heydər Əliyevin təkidi ilə 73-cü maddəni yeni dəyişikliklə vermək qərara alınır. Bu dəyişiklik Azərbaycan Sovet Sosialist Respublikasının dövlət dilinin Azərbaycan dili olduğunu əks etdirir. Bütün çətinliklərə baxmayaraq, Ümummilli Liderin bu cür tarixi qərara nail olması mənəvi varlığımızın əsası sayılan dilimizin inkişafında böyük addım oldu.

Ümummilli Liderin milli varlığımızı qorumağa yönəlik siyasəti onun hakimiyyətə ikinci dəfə qayıdışından sonra daha da geniş vüsət aldı. Ulu Öndər ana dilimizin saflaşdırılması və zənginləşdirilməsi istiqamətində mühüm addımlar atdı, Azərbaycan dilinin inkişafı və qorunması məqsədilə əhəmiyyətli sənədlər təsdiq etdi.

*(ardı səhifə 6-da)*

## BDU Pakistanın ən böyük sahibkarlıq sərgisində təmsil olunub

➔Səh.7

# “Siz böyük lidersiniz!”...

***Donald Tramp İlham Əliyevin liderliyini təsdiqlədi***

***“Sizə daha bir hədiyyəm var. Bu, Ağ Evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm”...***

Dünyanın ən qüdrətli və hegemon dövlətinin rəhbəri, ABŞ-nin 47-ci Prezidenti Donald Trampın ilk dəfə görüşdüyü və qısa müddətdə apardığı dialoq çərçivəsində xarizması, diplomatik gedişləri, dərin və məzmunlu fikirləri ilə onu heyran edən Prezident İlham Əliyevi dünyanın böyük lideri kimi təqdim etməsi Azərbaycana, onun müdrik rəhbərinə verilən ən yüksək dəyər və qiymət oldu.

Donald Trampın özünün də dediyi kimi, yalnız nadir hallarda təqdim edilən Ağ Evin rəmzi açarlarının cənab İlham Əliyevə hədiyyə edilməsi isə onu təsdiqlədi ki, Azərbaycan Prezidenti ABŞ liderinin ən dəyərli qonaqlarından biridir.

Ağ Evin rəhbərinin dünyanın siyasi xəritəsində kiçik bir məkan kimi görünən Cənubi Qafqaz ölkəsinin lideri barədə səsləndirdiyi dəyərli fikirlər cənab İlham Əliyevin dünyaşöhrətli siyasətçi, vədinə sadiq lider, etibarlı tərəfdaş, sözü imzası qədər keçərli Prezident olduğunu bir daha təsdiqlədi.

Ümumiyyətlə, Prezident İlham Əliyevin ABŞ lideri Donald Trampın dəvəti ilə bu ölkəyə işgüzar səfəri Bakı-Vaşinqton münasibətləri üçün çox önəmli məsələ, mühüm tarixi hadisə oldu. Reallıq budur ki, ikitərəfli münasibətlərdə artıq yeni əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi açılır.

Səfər çərçivəsində iki ölkə arasında imzalanan mühüm sənəd də tariximizə yeni abzasdan yazılmış oldu. Çünki Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılmasına dair sənədin, həqiqətən də, böyük əhəmiyyəti var. Həmin sənəddə təsbit edilən gələcək əməkdaşlıq istiqamətləri (qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, müdafiə sənayesi və müdafiə sahələrində əməkdaşlıq) ölkəmizin qarşısında nə qədər böyük imkanlar açıldığını göstərir. Bunun Azərbaycan üçün əlbəttə ki, çox müsbət təsirləri olacaq.

Etiraf edək ki, Azərbaycan hər zaman ABŞ ilə uğurlu diplomatik münasibətlər qurmaqda maraqlı olub. İki dövlət arasında tərəfdaşlığın 33 ildən artıq bir tarixi var. Bu illər ərzində ölkələrimiz arasında bərabərlik, qarşılıqlı hörmət və enerji təhlükəsizliyi, sülhməramlı əməliyyatlar, terrorla mübarizə və digər sahələr daxil olmaqla uğurlu əməkdaşlıq ənənələri formalaşıb. İki ölkə arasında siyasi əlaqələr dinamik olaraq inkişaf edir. Belə ki, ABŞ Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıyıb, diplomatik münasibətlər isə 28 fevral 1992-ci ildə qurulub. Azərbaycanın ABŞ-də səfirliyi 6 mart 1992-ci ildən, ABŞ-nin Azərbaycanda səfirliyi isə 16 mart 1992-ci ildən fəaliyyət göstərir.




Avqustun 8-dək Azərbaycanla Amerika Birləşmiş Ştatları arasında 90-a yaxın sənəd imzalanmışdı və genişmiqyaslı əməkdaşlıq üçün müvafiq normativ-hüquqi baza yaradılmışdı.

Lakin bundan öncəki Bayden-Blinken administrasiyası dönəmində sanki bu münasibət dondurulmuşdu. Əksinə, ABŞ rəhbərliyi Ermənistanın yalanlarına uyaraq işğalçı ölkəyə dəstəyini nümayiş etdirir, Azərbaycana qarşı ikili standartlar siyasətini yürüdürdü. Bayden administrasiyasının məqsədi ancaq Azərbaycanı qaralamaq, gözdən salmaq idi. Lakin Azərbaycan bütün bu təzyiqlərin qarşısında sınmadı, ləyaqətini itirmədi, milli maraqlarından bir addım da çəkilmədi.

Elə Prezident İlham Əliyev də yerli televiziya kanallarımıza verdiyi müsahibədə bu məsələyə toxunaraq əvvəlki administrasiya dövründəki dörd ili “itirilmiş illər” kimi qiymətləndirdi.

ABŞ səfərində cənab İlham Əliyevin tarixi uğurlarından biri də “Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasını dayandıran sənədin imzalanması oldu. Xatırladaq ki, torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdiyi bir dövrdə ABŞ Konqresi 1992-ci ildə Azərbaycanın guya Ermənistana “blokada” tətbiq etməsini bəhanə kimi göstərərək, Azərbaycana ABŞ-dən dövlət yardımının göstərilməsini qadağan edən qanunu qəbul etmişdir. Bayden-Blinken administrasiyası Əfqanıstan əməliyyatları başa çatan kimi nankorcasına 907 saylı düzəlişi yenidən canlandırmış, Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışmışdır.

Düzdür, hazırda Azərbaycan özü ehtiyacı olan ölkələrə yardımlar edir. Yəni iqtisadi cəhətdən qüdrətli donor ölkəyə çevrilən Azərbaycanın xarici dəstəyə, yardıma ehtiyacı yoxdur. Ona görə də Prezident Trampın bu qərarı rəmzi xarakter daşımaqla yanaşı, həm ədalətin bərpası, həm də ABŞ lideri tərəfindən Azərbaycan üçün siyasi jest hesab edilməlidir.

Vaşinqton görüşünün ən mühüm hadisələrindən biri də Azərbaycan-Ermənistan sülh gündəliyi ilə bağlı Birgə Bəyannamənin imzalanması oldu. ABŞ Prezidenti D.Trampın şahidliyi ilə Prezident İlham Əliyev və baş nazir N.Paşinyan arasında Vaşinqton görüşünün nəticəsi olaraq imzalanan sənəddə mühüm məsələlər yer aldı.

Burada ATƏT-in Baş katibinə Minsk qrupunun ləğvinə dair birgə müraciət təsdiqlənir. Eyni zamanda Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair sazişin mətni paraflanandan sonra adıçəkilən sazişin imzalanması və ratifikasiyasına nail olmaq üçün növbəti addımların atılmasının zəruriliyi tanınır. Yəni yekun sülh sazişinin imzalanması üçün əsas tələblərdən biri – Ermənistan Konstitusiyasının dəyişdirilməsinin zəruriliyi təsdiq olunur.

Vətən müharibəsindən sonra Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidi təmin edilməlidir. Dövlət başçısının bu tələbi də Ermənistan tərəfindən qəbul edildi. Belə ki, imzalanmış Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş təsdiq olundu. Beləliklə, Zəngəzur dəhlizi (“Tramp yolu”) də reallaşır.

Ümumiyyətlə, Prezident İlham Əliyevin ABŞ-yə səfəri siyasi və diplomatik sahədə bir neçə tarixi dönüş nöqtəsini özündə birləşdirir. Bunlar qarşılıqlı münasibətlərin strateji çərçivəyə yüksəldilməsi, barış və sülhün mümkünlüyü üçün Qafqazda yeni reallıqların yaranması, Azərbaycanın tranzit və enerji imkanlarının genişlənməsi perspektivləri, regionda geosiyasi təsirin diversifikasiyasıdır. Əlbəttə ki, bu addımlar həm Azərbaycan üçün, həm də region üçün təhlükəsiz, sabit, inkişafyönümlü bir gələcəyə işarə edir.

Bütün bunlar təbii ki, Prezident İlham Əliyevin tarixi uğuru kimi qiymətləndirilməlidir. Çünki Azərbaycan qüdrətli, tam müstəqil siyasət yürüdən Prezidentinin qlobal liderliyi ilə bütün hədəflərinə nail olur. 2020-ci il Vətən müharibəsi nəticəsində Azərbaycan öz torpaqlarını azad etdi və Ermənistan kapitulyasiya aktı imzalamağa məcbur oldu. Bundan sonra Azərbaycan qələbənin möhkəmləndirilməsi ilə məşğul oldu və “Qisas əməliyyatı” da daxil olmaqla bir neçə lokal xarakterli əməliyyat keçirərək Ermənistan ordusunun qalıqlarını, qeyri-qanuni erməni silahlı dəstələrini çətin duruma saldı, Laçında sərhəd keçid məntəqəsinin qurulmasına nail oldu. 2023-cü ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin göstərişi əsasında ordumuz 24 saatlıq antiterror tədbirləri ilə Azərbaycanın tam suverenliyini bərpa etdi. Onu da deyə bilərik ki, son 80 ildə Azərbaycan kimi tam, mütləq qələbə qazanan ölkə olmayıb.

Bir sözlə, müharibənin qalibi olmaqla yanaşı, sülh gündəliyinin banisi də Prezident İlham Əliyevdir. 2022-ci ilin əvvəlində sülh müqaviləsinin əsasını təşkil edən Azərbaycan 5 prinsipi Ermənistana təqdim etdi.

22 ilə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, 30 illik müharibəni 44 günə, 200 illik münaqişəni cəmi 5 ilə qədər zaman kəsiyində həll etmiş cənab İlham Əliyev hər bir azərbaycanlının qəlbində əbədi heykəlini ucaldıb.

Avqustun 8-də ABŞ-də yaşanan tarixi gerçəkliklər həm də Prezident İlham Əliyevin bir zamanlar Ulu Öndər Heydər Əliyevin başlatdığı prosesi zəfərlə yekunlaşdırdığının təsdiqi oldu.

Bu proses Cənubi Qafqaz üçün çox önəmli tarixi məsələdir. Ağ Evdə paraflanan sülh sazişi artıq bölgəyə sülh gətirir. Prezident İlham Əliyevin müəllifi olduğu bu sülh sazişi bölgədə yeni reallıqlar yaradacaq. İlk növbədə Avropa İttifaqının xüsusi missiyası bölgəni tərk edəcək. Naxçıvanla quru yolumuz bərpa ediləcək. 40 kilometrlik dəmir yolu çəkiləcək. Bununla da Azərbaycanın iki hissəsinin birləşdirilməsi prosesi reallaşacaq. Bu da cənab İlham Əliyevin siyasi hakimiyyəti dövründə reallaşacaq tarixi nailiyyətlər sırasına yazılacaq. Zəngəzur dəhlizinin açılması ilə Azərbaycan türk dünyasına növbəti töhfəsini vermiş olacaq.

İqtisadi maraqların mövcud olduğu ərazidə təbii ki, təhlükəsizlik ən önəmli məsələ olacaq. Bu da açıq-aydın göstərir ki, Cənubi Qafqaz ümumilikdə sabitlik adasına çevriləcək.

Bütün bunlar Prezident İlham Əliyevin siyasətinin hər zaman prioriteti olub. Nəyi nə zaman edəcəyini hər kəsdən yaxşı bilən, dediyi sözü, verdiyi vədi mütləq şəkildə gerçəkləşdirən cənab İlham Əliyev adını regionun ümumi tarixinə qızıl hərflərlə yazdırmış olacaq.

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, o, ümumiyyətlə, dünya miqyasında tanınan qlobal liderliyi etiraf olunan siyasətçidir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud problemlərini həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin.

Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir.

Bir sözlə, əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və hər kəslə öz milli maraqlarına əsaslanan münasibət qurmağa yönəlmiş çoxtərəfli xarici siyasət kursu ilə Azərbaycanın nüfuzunu getdikcə yüksəldən cənab İlham Əliyevin Vaşinqtonda ən əziz qonaq kimi qəbul edilməsi, ən dəyərli hədiyyə ilə mükafatlandırılması, Donald Tramp tərəfindən böyük lider adlandırılması, onun rəhbərlik qabiliyyətinin, siyasi nüfuzunun və qlobal miqyaslı rolunun yüksək dəyərləndirildiyinin göstəricisidir. Bu, Azərbaycana, onun Prezidentinə göstərilən sayğı, dəyər və qlobal dəstək ifadəsidir.

***Elçin Babayev***
*Bakı Dövlət Universitetinin rektoru*

*Mənbə: xalqqazeti.az*

# BDU-da azərbaycanlı çinşünas alim Aqşin Əliyevlə görüş keçirilib

***Avqustun 14-də BDU-nun rektoru Elçin Babayev Çin Xalq Respublikasının Pekin Xarici Dillər Universitetinin Asiya fakültəsinin Azərbaycan dili kafedrasının müdiri Aqşin Əliyevlə ilə görüşüb.***

Görüşdə Azərbaycan-Çin elmi-mədəni əlaqələrinin inkişaf perspektivləri, iki ölkə arasında dil, ədəbiyyat və mədəniyyətin qarşılıqlı təbliği sahəsində əməkdaşlıq imkanları müzakirə olunub. Elçin Babayev Aqşin Əliyevin Azərbaycan dilinin və mədəniyyətinin Çində tədrisində, ilk azərbaycanşünas kadrların hazırlanmasında, Azərbaycan-Çin humanitar əməkdaşlığının genişlənməsində göstərdiyi xidmətləri yüksək qiymətləndirib.



Aqşin Əliyev 2016-cı ildə Pekin Xarici Dillər Universitetində Azərbaycan dili və ədəbiyyatı kafedrasının yaradılması, 2018-ci ildə isə dünyada ilk dəfə əcnəbilər üçün nəzərdə tutulmuş dördillik “Azərbaycan dili” bakalavr ixtisasının təsis olunması barədə məlumat verib. O, hazırda həm Azərbaycan dilinin müxtəlif aspektlərdən tədrisinin, həm də Azərbaycan tarixi, ədəbiyyatı və mədəniyyətinin Çində təbliğinin uğurla davam etdirildiyini diqqətə çatdırıb.

Tərəflər birgə layihələrin icrası, elmi-tədqiqat mübadiləsi, tələbə və müəllimlərin qarşılıqlı ezamları, konfrans və seminarların təşkili kimi məsələlər barədə fikir mübadiləsi aparıblar. Görüşün sonunda Elçin Babayev Aqşin Əliyevə fəaliyyətində yeni uğurlar arzulayıb, Azərbaycan elminin və mədəniyyətinin beynəlxalq aləmdə təbliği sahəsində fəaliyyətinə BDU-nun hər zaman dəstək göstərəcəyini bildirib.

# BDU-da Pakistan səfiri və NUST Universitetinin rəsmisi ilə görüş

***Avqustun 15-də BDU-nun rektoru Elçin Babayev Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qasım Mohiuddin və bu ölkənin Milli Elm və Texnologiya Universitetinin (NUST) Siyasət Elmləri İnstitutunun rəhbəri Ashfaque Hasan Khan ilə görüşüb.***

Görüşdə Azərbaycan-Pakistan elmi-mədəni əlaqələrinin inkişaf perspektivləri, iki ölkə arasında elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlıq imkanları müzakirə olunub.

Elçin Babayev qonaqlara BDU ilə Pakistan ali təhsil müəssisələri arasında mövcud əməkdaşlıq, o cümlədən Universitetin Şərqşünaslıq fakültəsində urdu dilinin tədrisi barədə ətraflı məlu-



mat verib. Rektor bildirib ki, 2025-ci ilin mart ayında Pakistana işgüzar səfər çərçivəsində NUST Universiteti ilə BDU arasında əməkdaşlıq haqqında niyyət protokolu imzalanıb. O, həmçinin yaxın gələcəkdə qarşılıqlı səfərlərin və konkret layihələr üzərində birgə fəaliyyətin hər iki universitet arasında əlaqələrin daha da möhkəmlənməsinə töhfə verəcəyini vurğulayıb.

Səfir Qasım Mohiuddin Azərbaycan-Pakistan əlaqələrinin dostluq və qardaşlıq münasibətlərinə söykəndiyini, elm və təhsil sahəsində əməkdaşlığın genişləndirilməsinin bu münasibətləri daha da möhkəmləndirəcəyini bildirib.

Ashfaque Hasan Khan öz növbəsində NUST Universiteti barədə geniş məlumat verərək qeyd edib ki, universitet Pakistanın ən nüfuzlu ali təhsil müəssisələrindən biri olmaqla yanaşı, süni intellekt, data analitikası, aerokosmik elmlər, enerji texnologiyaları və informasiya texnologiyaları sahələrində güclü elmi bazaya malikdir.

Görüşün sonunda tərəflər elm, təhsil və mədəniyyət sahəsində əməkdaşlığın genişləndirilməsi istiqamətində birgə səylərin davam etdirilməsi barədə razılığa gəliblər.

# Azərbaycan ədəbiyyatının ölməz simvollarından biri - Bəxtiyar Vahabzadə

***Avqustun 16-da Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, akademik Bəxtiyar Vahabzadənin anadan olmasının 100 ili tamam olur.***

Müasir Azərbaycan ədəbiyyatının ən parlaq simalarından olan Bəxtiyar Vahabzadə öz yaradıcılığı ilə bədii fikrimizin zənginləşməsində, milli ruhun oyanmasında mühüm rol oynayıb. Böyük söz ustası xalqımızın yüz illər boyu təşəkkül tapmış yüksək milli-mənəvi dəyərlərinin qorunması, adət-ənənələrimizin yaşadılması naminə altmış ildən artıq bir müddət ərzində yorulmadan yazıb, yaradıb. O, azərbaycançılıq məfkurəsinə dərindən bağlı olan və özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına töhfələr verib. Azərbaycan xalqının tarixinin qədim dövrlərdən bəri müxtəlif mərhələlərində baş vermiş taleyüklü hadisələr, böyük şəxsiyyətlərin parlaq simaları ustad sənətkarın diqqət mərkəzində olub.

Bəxtiyar Vahabzadənin bir alim kimi Azərbaycan elmi qarşısında xidmətləri danılmazdır. Onun şifahi ədəbi irsimizin, klassik və müasir Azərbaycan ədəbiyyatının öyrənilməsi sahəsində axtarışlarının bəhrəsi olan əsərləri daim elmi ictimaiyyət tərəfin-




dən maraqla qarşılanıb. Bəxtiyar Vahabzadə 1942–1947-ci illərdə Filologiya fakültəsində təhsil alıb. O, ədəbi və elmi yaradıcılığı pedaqoji fəaliyyətlə uğurla əlaqələndirərək, 1950-ci ildən ömrünün sonunadək BDU-nun professoru kimi Azərbaycanda yüksəkixtisaslı kadrların hazırlanmasına töhfələr verib. 1951-ci ildə "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik, 1964-cü ildə isə "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda monoqrafiyasını müdafiə edib, filologiya elmləri doktoru alimlik dərəcəsini alıb. O, 1980-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilib. 2000-ci ildən isə AMEA-nın həqiqi üzvü olub.

Yetmişdən çox şeir kitabı ilə böyük oxucu sevgisi qazanan Bəxtiyar Vahabzadə 2 monoqrafiyanın, 11 elmi publisistik kitabın və yüzlərlə məqalənin müəllifi olaraq əsl alim kimi öz sözünü deyib.

Haqsızlığa, ədalətsizliyə qarşı üsyan Bəxtiyar şeirinin əsas leytmotivlərindəndir. Görkəmli söz ustası hələ ötən əsrin 60-cı illərindən ölkəmizdə sovet imperiyasına qarşı milli azadlıq hərəkatının öncüllərindən biri olub. 1959-cu ildə yazdığı "Gülüstan" poeması ilə iki yerə parçalanmış Azərbaycanın tarixi faciəsini dilə gətirərək, imperiya pəncəsi altında inləyən Azərbaycan xalqının azadlıq və istiqlal uğrundakı ədalətli mübarizəsinə qoşulub.

Bəxtiyar Vahabzadə yaradıcılığında baş mövzulardan biri də ana dilidir. Onun qəti qənaətinə görə, dil xalqın varlığının nişanələrindən biri olub, onun ən qiymətli sərvətidir, üstəlik nəsillər silsiləsini birləşdirən, babaların vəsiyyətini nəvələrə çatdıran qüdrətli tərbiyə vasitəsidir.

Bəxtiyar Vahabzadənin tariximizin bir çox hadisələrini canlandıran dram əsərləri gənc nəslin tərbiyəsində böyük rol oynayır. Müasir həyatdakı ziddiyyətlərin, qarşıdurmaların və mənəvi sarsıntıların təsviri ilə yanaşı, yüksək, pak və ülvi hisslərin tərənnümü ədibin dramaturgiyasında təcəssümünü tapıb. Təsadüfi deyil ki, onun pyesləri Azərbaycan, eləcə də xarici ölkə teatrlarının səhnələrində uğurla tamaşaya qoyulub, müəllifinə böyük şöhrət gətirib. Onun müasir mövzularda qələmə aldığı "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Hara gedir bu dünya?", "Fəryad", "Cəzasız günah", "Dar ağacı", "Rəqabət" və "Özümüzü kəsən qılınc" kimi lirik-psixoloji pyesləri günün aktual problemlərindən, müasirlərimizin daxili dünyasından, daim təzələnən həyat və insan münasibətlərindən söz açmaqla gerçəkliyin ən müxtəlif tərəflərinə diqqəti cəlb edib, layiqli səhnə təcəssümü taparaq, yarım əsrədək bir müddətdə Azərbaycan səhnəsindən düşməyib. O, tarixi və müasir mövzuda 20-dən artıq irihəcmli poemanın müəllifidir.

Bəxtiyar Vahabzadə Azərbaycan xalqının müstəqilik ideyalarının ilk carçılarından idi. Bu azadlığın çətin və şərəfli iş olduğunu duyaraq bir an belə seçdiyi yoldan nəinki dönmədi, əksinə daim mübarizənin ön cərgəsində oldu. Bəlkə də bu səbəbdəndir ki, 20 Yanvar faciəsi ilə bağlı qələmə aldığı "Şəhidlər" poeması ilə yeni bir tarix yazdı.

Bəxtiyar Vahabzadə bütün həyat və yaradıcılığı boyu xalqının sevgisinə və etimadına layiq olduğunu təsdiqləyib. Çətinliklər və ziddiyyətlərlə dolu ömür yolunda o, heç vaxt sarsılmayıb, milli məfkurəyə sədaqətini dönmədən qoruyub. Xalqımızın mənəvi yaddaşında əbədi iz qoyan Xalq şairi Bəxtiyar Vahabzadə Azərbaycan ədəbiyyatının ölməz simvollarından biridir.

# Türkiyənin Azərbaycandakı səfiri BDU-da olub

***Avqustun 1-də Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Birol Akgün BDU-da olub.***

Qonağı salamlayan rektor Elçin Babayev iki qardaş ölkə arasında bütün sahələrdə əlaqələrin yüksək səviyyədə olduğunu nəzərə çatdırıb. Qeyd edib ki, BDU Türkiyənin bir sıra nüfuzlu universitetləri ilə səmərəli əməkdaşlığa malikdir. BDU-da təhsil alan xarici tələbələrin də çoxu Türkiyədəndir. Elçin Babayev Universitetin tədris, elmi fəaliyyəti, beynəlxalq əlaqələri ilə bağlı səfirə məlumat verib. BDU ilə Türkiyə universitetləri arasında qarşılıqlı və faydalı əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyini vurğulayıb.



Səfir Birol Akgün universitetlər arasında elm-təhsil sahəsində həyata keçirilən layihələrin, tələbə-müəllim mübadiləsinin vacibliyini qeyd edib, əlaqələrin daha da genişləndirilməsinə ehtiyac olduğunu vurğulayaraq səfirliyin bu istiqamətdə dəstək olacağını bildirib.

Görüşdə BDU və Türkiyə ali məktəbləri arasında təhsil sahəsində əlaqələrin perspektivləri, tələbə və müəllim mübadiləsi, birgə elmi tədqiqatların aparılması ilə bağlı fikir mübadiləsi aparılıb.

Səfir daha sonra BDU-nun Heydər Əliyev muzeyini və "Türk otağı"nı ziyarət edib.

# BDU-da "Elsevier" ilə yeni əməkdaşlıq imkanları müzakirə olunub

***Avqustun 13-də BDU-da beynəlxalq elmi nəşriyyat və akademik məlumat bazaları sahəsində dünyanın aparıcı platformalarından biri olan "Elsevier" şirkətinin nümayəndəsi Yasemin Solay ilə işgüzar görüş keçirilib.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev, rektorun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova, keyfiyyət təminatı üzrə müşavir Asiman İlyasov və rektorun katibliyinin rəhbəri Mahir Pirquliyev iştirak ediblər.

Tərəflər görüş zamanı Universitetin elmi fəaliyyətinin beynəlxalq arenada tanıdılması, tədqiqat nəticələrinin nüfuzlu akademik bazalara inteqrasiyası, elmi məhsuldarlığın artırılması və müasir idarəetmə alətlərinin tətbiqi üzrə geniş əməkdaşlıq perspektivlərini müzakirə ediblər.

Müzakirələr çərçivəsində BDU-da elmi fəaliyyətin səmərəli idarə olunmasını təmin edəcək elektron platformaların tətbiqi, elmi jurnalların beynəlxalq indekslərdə yer alması, tədqiqatçılar üçün beynəlxalq standartlara uyğun elmi məqalə yazılması üzrə təlimlərin təşkili, SciVal və digər analitik platformalar üzrə praktiki təlimlərin keçirilməsi kimi mövzulara xüsusi diqqət yetirilib. Bununla yanaşı, Universitetin elmi nəşrlərinin və tədqiqat nəticələrinin daha geniş beynəlxalq auditoriyaya çatdırılması yolları da müzakirə olunub.



BDU rəhbərliyi görüşdə vurğulayıb ki, "Elsevier" ilə əməkdaşlıq Universitetin beynəlxalq elmi reytinqlərdə mövqeyinin möhkəmlənməsinə, tədqiqatların dünya akademik ictimaiyyətinə çatdırılmasına və Universitetdə müasir elmi mühitin inkişafına mühüm töhfə verəcək. Həmçinin, tərəflər bu əməkdaşlığın gənc tədqiqatçılar üçün yeni imkanlar yaradacağını və BDU-nun elmi fəaliyyətində innovativ yanaşmaların tətbiqinə dəstək olacağını bildiriblər.

Görüşün sonunda tərəflər əməkdaşlığın konkret addımlarını müəyyənləşdirmək və gələcək layihələri planlaşdırmaq üzrə qarşılıqlı razılığa gəliblər.

# Türkiyə Elmlər Akademiyasının prezidenti Muzaffer Şeker BDU-da

***Avqustun 13-də Türkiyə Elmlər Akademiyasının (TÜBA) prezidenti professor Muzaffer Şeker BDU-da olub.***

Qonağı salamlayan BDU rektoru Elçin Babayev türkdilli dövlətlərin özünün intibah dövrünü yaşadığını qeyd edib. O bildirib ki, türk dövlətlərinin universitet və akademiyaları arasında əməkdaşlıq daha da genişləndirilməli, ənənəvi humanitar və sosial sahələrlə yanaşı, təbiət elmləri istiqamətində və fənlərarası sahələrdə də layihələr çoxaldılmalıdır. Bu baxımdan oktyabrın 28-31-də BDU, Beynəlxalq Türk Akademiyası və TÜBA ilə Bakıda birgə keçiriləcək Süni intellekt etikası üzrə beynəlxalq tədbir xüsusi önəm daşıyır.

Türkiyə Elmlər Akademiyasının prezidenti professor Muzaffer Şeker TÜBA-nın Azərbaycanla akademik əməkdaşlığı daha da gücləndirməyi hədəflədiyini vurğulayıb. O qeyd edib ki, TÜBA Azərbaycanın əsas elm və təhsil məbədi olan BDU ilə hər sahədə əməkdaşlığı inkişaf etdirməyə hazırdır.

Görüşdə BDU və TÜBA arasında birgə elmi layihələrin və akademik təşəbbüslərin həyata keçirilməsi də müzakirə olunub.



# BDU-da Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının nümayəndələri ilə görüş



***Avqustun 26-da Bakı Dövlət Universitetinin rəhbərliyi Səudiyyə Ərəbistanı Krallığında fəaliyyət göstərən Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının nümayəndələri ilə görüşüb.***

Nümayəndə heyətində Təhsil sektoru üzrə imtahanlar idarəsinin müdiri Dr. Mansur Əl-Maliki, Beynəlxalq əməkdaşlıq idarəsinin əməkdaşı Riham Abdulxaliq, Marketinq və kommunikasiya idarəsinin əməkdaşı Abdul İlah Ət-Tuvaym, həmçinin İnzibati işlər idarəsinin nümayəndəsi Məhəmməd Əl-Yusuf yer alıb.

Qonaqlar BDU-da keçirilən səmimi görüşün qəbuluna görə təşəkkürlərini bildiriblər və əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb. Görüşdə tərəflər arasında ərəb dili müəllimlərinin hazırlanması və ixtisasartırma proqramları, tələbə və müəllim mübadiləsi, ortaq elmi-praktik tədbirlərin təşkili, həmçinin ərəb dilinin öyrənilməsi və tədrisinin inkişafına yönəlmiş layihələrin təşkili istiqamətində birgə əməkdaşlığın həyata keçirilməsi məsələləri müzakirə edilib.

# BDU-da Anadolu Universitet Kitabxanaları Konsorsiumunun rəhbəri İsmail Çetinkaya ilə görüş



***Avqustun 19-da BDU-nun rektoru Elçin Babayev Türkiyənin Anadolu Universitet Kitabxanaları Konsorsiumunun (ANKOS) rəhbəri İsmail Çetinkaya ilə görüşüb.***

Qonağı salamlayan rektor Elçin Babayev müasir çağırışlara cavab verən universitet quruculuğunda rəqəmsal resursların əhəmiyyətini vurğulayıb, BDU-da son illər bu istiqamətdə həyata keçirilən yeniliklər barədə məlumat verib. BDU Elmi Kitabxanasının 50 ildən artıqdır Azərbaycan ali məktəb kitabxanaları üçün metodik mərkəz statusunu daşıdığını vurğulayıb. Ölkənin 15 ali təhsil müəssisəsi BDU-da fəaliyyət göstərən Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun (AzKİK) üzvüdür. O, kitabxana işi sahəsində nüfuzlu beynəlxalq təşkilat və nəşriyyatlarla əlaqələrin qurulmasının BDU-da elm və təhsilin inkişafına töhfə verdiyini diqqətə çatdırıb.

ANKOS-un rəhbəri İsmail Çetinkaya hər il ənənəvi olaraq keçirilən ANKOSLink beynəlxalq konfransının Türkiyədə və regionda kitabxana, nəşriyyat işinə dair yeniliklərin izlənildiyi, problemlərin müzakirə edildiyi, həll yollarının təklif olunduğu dinamik platforma olduğunu xatırladıb. BDU-nun Azərbaycanda elmi kitabxanaların əsas mərkəzi kimi konfransın işində mühüm önəmə malik olduğunu bildirib.

Görüşdə BDU Elmi Kitabxanası və AzKİK ilə ANKOS arasında əlaqələrin daha da dərinləşdirilməsinə dair müzakirələr aparılıb.

# BDU-da Azərbaycanda "Ərəb dili ayı"nın açılış mərasimi






***Səudiyyə Ərəbistanı Krallığında fəaliyyət göstərən Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının təşəbbüsü ilə avqust ayı Azərbaycanda "Ərəb dili ayı" elan olunub. Avqustun 18-də BDU-da "Ərəb dili ayı"nın rəsmi açılış mərasimi keçirilib. Tədbirdə dövlət və hökumət nümayəndələri, millət vəkilləri, ali təhsil müəssisələrinin rəhbərləri, Səudiyyə Ərəbistanı Krallığının və digər ərəb ölkələrinin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların nümayəndələri, professor-müəllim heyəti və tələbələr iştirak ediblər.***

Əvvəlcə Azərbaycan Respublikası və Səudiyyə Ərəbistanı Krallığının Dövlət himnləri səsləndirilib.

Bakı Avrasiya Universitetinin Ərəbşünaslıq Mərkəzinin direktoru, dosent Ülviyyə Hüseynova "Ərəb dili ayı"nın məqsədi, əhəmiyyəti və tədbirin proqramı barədə məlumat verib.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev çıxışında ərəb dilinin dünyanın ən qədim və zəngin dillərindən biri olduğunu, əsrlər boyu Şərq və Qərb arasında elmin, ədəbiyyatın və mədəniyyətin körpüsü kimi bəşər sivilizasiyasının inkişafında mühüm rol oynadığını bildirib. O qeyd edib ki, Azərbaycan xalqının ərəb dili ilə əlaqəsi qədim tarixə dayanır. İslam dünyası ilə mədəni, dini və elmi münasibətlərimizin əsas sütunlarından biri məhz ərəb dilidir. Əsrlər boyu Azərbaycan alimləri bu dil vasitəsilə böyük İslam mədəniyyətinə qoşulub, öz elmi irsini ərəb dünyasına təqdim ediblər. Bu missiyanın ən böyük daşıyıcılarından biri BDU və onun Şərqşünaslıq fakültəsidir. Professorlar Ələsgər Məmmədov, Rəhim Sultanov, Həsən Mahmudov, Mübariz Əlizadə, Aida İmanquliyeva, akademik Vasim Məmmədəliyev və bir çox başqa görkəmli şəxsiyyətlər ərəb dili və ərəb ədəbiyyatının Azərbaycanda öyrənilməsi və tədrisinin əsas sütunlarını yaradıblar. Bu ənənəni bu gün də davam etdirən müasir alimlərimiz var. Onların elmi fəaliyyəti nəticəsində Azərbaycan şərqşünaslığı dünya elminin ayrılmaz hissəsinə çevrilib: "Azərbaycan ərəbşünaslıq məktəbinin formalaşmasında böyük rolu olan alimlərin zəngin elmi irsi bu gün də gənc tədqiqatçılar üçün örnəkdir. BDU-nun Ərəb filologiyası kafedrası Şərqşünaslıq fakültəsinin əsas tədris və elmi-tədqiqat mərkəzlərindən biridir. Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyası ilə mümkün əməkdaşlıq layihələri Universitetin tədris və tədqiqat imkanlarını daha da zənginləşdirə və gənclərimiz üçün yeni perspektivlər aça bilər. Son illərdə Bakı Dövlət Universiteti ərəb dünyasının bir sıra ölkələri ilə əməkdaşlıq əlaqələrini gücləndirib. Bir sıra ərəb ölkələrinin ölkəmizdəki səfirləri ilə görüşlər keçirilib, yeni layihələr müzakirə olunub. BDU-da ərəb dilinin tədrisini inkişaf etdirmək və ərəb dünyası ilə əlaqələri gücləndirmək üçün ardıcıl addımlar atılır. Əminik ki, bu fəaliyyət gənclərimizin elmi və peşəkar inkişafına, ölkələrimiz arasında qarşılıqlı dostluq və əməkdaşlıq körpüsünün daha da möhkəmlənməsinə xidmət edəcək".

Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının baş direktoru Abdullah bin Saleh əl-Vaşmi Azərbaycan ilə ərəb dünyası arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin əhəmiyyətini vurğulayıb. Qeyd edib ki, Bakı Dövlət Universitetində "Ərəb dili ayı"nın keçirilməsi yalnız elmi-mədəni hadisə deyil, həm də ölkələr arasında strateji tərəfdaşlığın dərinləşməsi üçün yeni imkanlar açır.

Səudiyyə Ərəbistanı Krallığının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri İssam bin Saleh əl-Cuteyli bildirib ki, ərəb dili bütün dövrlərdə bəşəriyyətin ən qədim və mühüm dillərindən biri sayılıb. Ərəb dili 1973-cü ildən BMT Baş Assambleyasının rəsmi dillərindən biridir. Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyası ərəb dilinin qorunması, inkişafı istiqamətində mühüm işlər görməkdədir. Kral Salman Beynəlxalq Ərəb Dili Akademiyasının təşkil, Bakı Dövlət Universiteti ilə Bakı Avrasiya Universitetinin ev sahibliyi etdiyi "Ərəb dili ayı" Səudiyyə Ərəbistanının ərəb dilinə göstərdiyi diqqətin, onun müxtəlif xalqlara tanıdılmasının açıq göstəricisidir. Orta əsrlərdə Azərbaycan alimləri, ədibləri və şairləri ərəb dilində dəyərli əsərlər yazaraq İslam mədəniyyətinin zənginləşməsinə böyük töhfə veriblər: "Sevindirici haldır ki, bu gün də Azərbaycanda ərəb dilinə böyük maraq var. Hazırda ölkədə 10 ümumtəhsil məktəbində və 6 nüfuzlu universitetdə ərəb dili tədris olunur. Biz inanırıq ki, ərəb dili mədəniyyətlər və xalqlar arasında körpü rolunu davam etdirəcək, ölkələrimiz və xalqlarımız arasında yaxınlaşmanı gücləndirəcək".

Bakı Avrasiya Universitetinin rektoru Səyavuş Qasımov Azərbaycanda "Ərəb dili ayı"nın keçirilməsinin dil və mədəniyyətlərarası əlaqələrin inkişafına xidmət edən, təhsil və elmi əməkdaşlıq üçün yeni imkanlar açan əlamətdar bir hadisə olduğunu deyib. O bildirib ki, belə bir ayın təşkili ərəb dilinin respublikamızda yayılmasına, öyrənilməsinə və əsrlərlə formalaşmış mədəni irsimizin qorunmasına dəstəkdir: "Ərəb dilinin öyrənilməsi və tədrisi həm tarixi-mədəni irsimizin qorunması, həm də beynəlxalq əməkdaşlığın inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Bu istiqamətdə atılan addımların gələcəkdə daha da genişlənəcəyinə və yeni əməkdaşlıq imkanları yaradacağına inanırıq".

Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyası haqqında tanıtım videosunun təqdimatı, Akademiyanın Əbcəd mərkəzində təhsil alan azərbaycanlı məzunların çıxışları olub.

Mərasimdə "Ərəb dili ayı"nın ilk iki həftəsində keçirilən ərəb dili üzrə şeir, qiraət və inşa müsabiqələrinin qalibləri mükafatlandırılıb.

Daha sonra "Ərəb dilinə dair 100 sual" kitabının təqdimatı və Azərbaycanda ərəb dilinin vəziyyəti ilə bağlı hesabat dinlənilib. Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyası haqqında tanıtım guşəsinə baxış keçirilib.

Mərasimin sonunda BDU-nun Mədəniyyət-Yaradıcılıq Mərkəzinin hazırladığı bədii proqram nümayiş olunub.

# Bakı Dövlət Universitetində "Ərəb dili ayı" çərçivəsində təlimlər keçirilir

***Səudiyyə Ərəbistanı Krallığında fəaliyyət göstərən Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının təşəbbüsü ilə 2025-ci ilin avqust ayı Azərbaycanda "Ərəb dili ayı" elan olunub. Bu təşəbbüs ərəb dilinin öyrənilməsi və tədrisinin inkişaf etdirilməsi, həmçinin beynəlxalq əməkdaşlığın möhkəmləndirilməsi məqsədi daşıyır.***

Bu çərçivədə BDU-da müəllim və tələbələr üçün xüsusi təlimlər təşkil olunub. Təlimlərdə iştirak etmək üçün 50-dək müəllim və 110-a yaxın tələbə qeydiyyatdan keçib. Bu göstərici ölkəmizdə ərəb dilinə artan marağın və bu sahədə peşəkar hazırlığa olan ehtiyacın bariz nümunəsidir.

Proqram çərçivəsində ümumi anlayışlar, testlərin əhəmiyyəti, dilin komponentləri, kommunikativlik və onun növləri, həmçinin dil tədrisində texnologiyanın tətbiqi kimi mövzular əhatə olunur. 4 gün davam edəcək təlimlər iştirakçıların nəzəri biliklərinin dərinləşməsinə, metodiki yanaşmalarının zənginləşməsinə, eləcə də praktik bacarıqlarının inkişafına xidmət göstərir.

Təlimlərə İmam Məhəmməd ibn Səud Universitetinin professoru Saleh Nasser Al-Şuvairkh və Mədinə İslam Universitetinin dosenti Maher Dakhil Allah Al-Sa'edi mentorluq edirlər. Onların iştirakı proqramın elmi-metodiki dəyərini artırmaqla yanaşı, təlimə qatılanlar üçün müasir yanaşmalarla tanışlıq imkanı yaradır.

"Ərəb dili ayı" çərçivəsində həyata keçirilən bu təşəbbüs həm BDU-da ərəb dili tədrisinin keyfiyyətini yüksəltməyi, həm də Azərbaycanda gənclərin bu sahəyə marağını daha da gücləndirməyi hədəfləyir. Layihənin nəticələri ərəb dili üzrə peşəkar mütəxəssislərin hazırlanmasına, elmi-mədəni əməkdaşlığın genişlənməsinə və Azərbaycan–Səudiyyə Ərəbistanı əlaqələrinin inkişafına mühüm töhfə verəcək.

# BDU-da "Elsevier"in Türkiyə və Mərkəzi Asiya üzrə nümayəndəsi ilə görüş keçirilib

***Avqustun 21-də BDU-da beynəlxalq elmi nəşriyyat və akademik məlumat bazaları sahəsində dünyanın lider qurumlarından biri olan "Elsevier" şirkətinin Türkiyə və Mərkəzi Asiya ölkələri üzrə nümayəndəsi Ayhan Akanay Saracoğlu ilə görüş keçirilib.***

Görüşdə BDU-nun rektoru Elçin Babayev, elm və innovasiyalar üzrə prorektor Hüseyn Məmmədov və rektorun keyfiyyət təminatı üzrə müşaviri Asiman İlyasov iştirak ediblər.

Tərəflər Universitetin elmi fəaliyyətinin beynəlxalq platformalarda daha geniş təqdim olunması, tədqiqat nəticələrinin nüfuzlu elmi bazalarda yayımlanması, elmi məhsuldarlığın artırılması və müasir idarəetmə mexanizmlərinin tətbiqi istiqamətində əməkdaşlıq imkanlarını müzakirə ediblər.

Qeyd edək ki, avqustun 13-də "Elsevier"in digər nümayəndəsi Yasemin Solay ilə keçirilmiş görüşdə də Universitetin elmi fəaliyyətinin səmərəli idarə olunması, beynəlxalq indekslərdə təmsilçilik və gənc tədqiqatçılar üçün təlimlərin təşkili məsələləri müzakirə edilmişdi. Ayhan Akanay Saracoğlu ilə keçirilən bu görüş həmin müzakirələrin məntiqi davamı olaraq, əməkdaşlığın daha geniş regional müstəvidə inkişafına xidmət edir.

Rektor Elçin Babayev vurğulayıb ki, "Elsevier" ilə ardıcıl keçirilən görüşlər Universitetin beynəlxalq elmi əlaqələrinin möhkəmlənməsinə, tədqiqatların dünya akademik ictimaiyyətinə çatdırılmasına və BDU-da innovativ elmi mühitin formalaşmasına mühüm töhfə verəcək.

Ayhan Akanay Saracoğlu isə BDU ilə əməkdaşlıqdan məmnunluğunu ifadə edərək, Universitetin elmi potensialının regionda aparıcı mövqedə olduğunu bildirib. "Elsevier"in bu potensialın beynəlxalq miqyasda tanıdılması üçün dəstək göstərməyə hazır olduğunu qeyd edib.

(əvvəli səhifə 1-də)

# Ana dilimiz – milli sərvətimiz, iftixarımız

***Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, beynəlxalq münasibətlər sisteminə yol tapması ana dilimizin gözəl bilicisi, mahir natiq Ulu Öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.***

Müstəqil Azərbaycanın 1995-ci ildə qəbul olunmuş Konstitusiyasında Azərbaycan dilinin Azərbaycan Respublikasının dövlət dili kimi təsbiti, onun rəsmi dövlət dili statusuna yüksəlməsi milli dövlətçilik tariximizin ən önəmli hadisələrindən biridir. Bundan sonra dövlət səviyyəsində ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edilib. Ümummilli Liderin 2001-ci il iyulun 18-də imzaladığı “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında”, həmin il avqustun 9-da imzaladığı “Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında” fərmanlar ana dilimizin qorunması və inkişafı baxımından göstərdiyi misilsiz xidmətlərdəndir. 2003-cü il yanvarın 2-də isə Ulu Öndər Heydər Əliyevin fərmanı ilə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikasının qanunu qüvvəyə minib. Qanunda dövlətin ana dilinə qayğısı istiqamətində əsas vəzifələr dəqiq göstərilib.




Ulu Öndər deyirdi: “Millətin milliliyini saxlayan onun dilidir. Şübhəsiz ki, musiqi də, ədəbiyyat da, ayrı-ayrı tarixi abidələr də millətin milliliyini təsdiq edir. Amma millətin milliliyini ən birinci təsdiq edən onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi, inkişaf etməsi də bizim ən böyük nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, bu həm də azəbaycançılıq məsələsidir”.

Ümummilli Liderin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən inamla davam etdirilir. Dövlətimizin başçısının 2004-cü il yanvarın 12-də imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” sərəncamı ilə hər il latın qrafikalı Azərbaycan əlifbası ilə çap olunacaq əsərlərin siyahısı hazırlanır. Bundan başqa, həmin il yanvarın 14-də “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında”, eləcə də 2007-ci il dekabrın 30-da “Dünya ədəbiyyatının görkəmli nümayəndələrinin Azərbaycan dilində nəşri nəzərdə tutulan əsərlərinin siyahısının təsdiq edilməsi haqqında” sərəncamlarla ana dilinin həyatımızın bütün sahələrində müfəssəl tətbiqi gerçəkləşib.

Müasir dövrün tələblərini və reallıqlarını nəzərə alan Azərbaycan Prezidentinin “Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı”nı 2013-cü il 9 aprel tarixli sərəncamı ilə təsdiq etməsi milli və mənəvi varlığımızın güzgüsü olan ana dilimizin saflığının və zənginliyinin qorunması baxımından mühüm tarixi hadisədir. Dövlət Proqramının məqsədi Azərbaycan dilinin istifadəsinə və tədqiqinə dövlət qayğısının artırılması, dilimizin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsi, ölkədə dilçilik araşdırmalarının yaxşılaşdırılmasıdır. Sənəd, eyni zamanda, dilçiliyin aparıcı istiqamətlərində fundamental və tətbiqi tədqiqatların inkişafına yönəldilmiş yaradıcılıq səylərinin birləşdirilməsini və dilçiliyin müasir cəmiyyətin aktual problemləri ilə əlaqələndirilməsini nəzərdə tutur.

Prezident İlham Əliyevin “Azərbaycan dilinin elektron məkanda daha geniş istifadəsinin təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında” 2018-ci il 17 iyul tarixli sərəncamı Azərbaycan dilinin inkişafı və tətbiqi dairəsinin daha da genişləndirilməsi baxımından xüsusi əhəmiyyət kəsb edir. Dövlətimizin başçısının 2018-ci il noyabrın 1-də imzaladığı “Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında” fərmanı ölkəmizdə dövlət dilinin daim diqqət mərkəzində saxlanıldığının bir daha təsdiq edir. Dil quruculuğu ilə bağlı olan bu sənəd Azərbaycan dilinin milli-mənəvi, siyasi-hüquqi statusunun möhkəmlənməsi istiqamətində atılmış mühüm addımlardan biridir.

Ana dilimiz dövlətimizin, millət kimi varlığımızın təməl daşlarından biridir. Onun saflığını qorumaq, daha da zənginləşdirmək və gələcək nəsillərə ötürmək hər birimizin vətəndaşlıq borcudur.

# BDU-da “Qafqazda və Mərkəzi Asiyada ərəb dilinin tədrisinin tarixi” mövzusunda beynəlxalq forum keçirilib

***Səudiyyə Ərəbistanı Krallığında fəaliyyət göstərən Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının təşəbbüsü ilə 2025-ci ilin avqust ayı Azərbaycanda “Ərəb dili ayı” elan olunub. Bu çərçivədə BDU-da “Qafqazda və Mərkəzi Asiyada ərəb dilinin tədrisinin tarixi” mövzusunda beynəlxalq forum təşkil edilib.***

Tədbirin təşkilatçıları Bakı Dövlət Universiteti və Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyası olub. Forumda həmçinin Qazaxıstanın Əl Fərabi Universiteti, Qırğızıstanın Bişkek Universiteti, Tacikistanın Düşənbə Universiteti və Gürcüstanın Tbilisi Dövlət Universitetinin nümayəndələri iştirak ediblər.

Forumun əsas məqsədi ərəb dilinin Qafqazda və Mərkəzi Asiya regionunda tədris tarixi, inkişaf istiqamətlərinin müzakirəsi, universitetlərarası əməkdaşlığın gücləndirilməsi və yeni elmi-mədəni əlaqələrin qurulması olub.



Müzakirələr zamanı iştirakçı ölkələrin nümayəndələri öz universitetlərinin timsalında ərəb dilinin tədrisi tarixindən, bu sahədə görülən işlərdən və mövcud təcrübədən danışıblar. Azərbaycan təcrübəsi çərçivəsində Bakı Dövlət Universitetində ərəb dilinin tədrisi ənənələri və müasir yanaşmalar, region ölkələrinin təqdimatlarında isə ərəb dilinin elmi və mədəni əlaqələrin inkişafındakı rolu diqqət mərkəzində olub.

Forum ərəb dilinin yalnız bir ünsiyyət vasitəsi deyil, həm də xalqlar arasında mədəni körpü və elmi əməkdaşlıq platforması kimi rolunu vurğulayıb. Çıxışlarda, həmçinin, ərəb dünyası ilə Azərbaycan və Mərkəzi Asiya ölkələri arasında humanitar münasibətlərin daha da dərinləşdirilməsinin vacibliyi qeyd edilib.

Forumun yekununda iştirakçı universitetlər gələcəkdə ortaq elmi layihələrin, tələbə və müəllim mübadiləsinin, beynəlxalq konfransların və birgə tədris proqramlarının həyata keçirilməsi barədə razılığa gəliblər.

# İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı Bartın Universitetinin rektoru ilə görüşüb

***Avqustun 21-də Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ələmdar Cabbarlı Türkiyə Cümhuriyyətinin Bartın Universitetində olub.*** Fakültə dekanı səfər çərçivəsində Bartın Universitetinin rektoru, professor Ahmet Akkaya ilə görüşüb. Görüşdə rektora ölkəmizdəki təhsil mühiti, BDU-nun tarixi və bu günü, eyni zamanda fakültə barədə məlumat verilib. Bartın Universitetinin İnformasiya və sənəd menecmenti bölümü ilə BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsi arasında əməkdaşlığın müxtəlif platformalarda inkişaf etdirildiyi, indiyə qədər birgə beynəlxalq elmi konfransların, ustad dərsləri və elmi seminarların keçirildiyi diqqətə çatdırılıb.

Rektor Ahmet Akkaya ölkəmizin ən nüfuzlu ali təhsil müəssisəsi olan BDU ilə əməkdaşlığı yüksək qiymətləndirib. Bartın Universitetinin Ədəbiyyat fakültəsinin İnformasiya və sənəd menecmenti bölümünün rəhbəri, dosent Ahmet Altayın da iştirak etdiyi akademik mübadilə proqramlarının əhatə dairəsinin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi, elmi araşdırmaların aparılması, ikili diplom proqramlarının mümkünlüyü ilə bağlı geniş fikir mübadiləsi aparılıb. Görüşdə həmçinin 2026-cı ilin mart ayında Bartın Universitetinin ev sahibliyi ilə birgə beynəlxalq tələbə elmi konfransının təşkil edilməsi təklifi irəli sürülüb.



# BDU Pakistanın ən böyük sahibkarlıq sərgisində təmsil olunub

***BDU-nun Tələbə Elmi-Texniki Yaradıcılıq Mərkəzinin hazırladığı "Irrigo – Dayanıqlı Kənd Təsərrüfatı Ekosistemi" layihəsi Pakistanın ən böyük sahibkarlıq sərgisi olan "SEE Pakistan 2025" tədbirində uğurla təmsil olunub.***




7-9 avqust 2025-ci il tarixlərində Pakistanın Lahor şəhərində keçirilən möhtəşəm tədbirdə BDU sərgi stendi ilə iştirak edib.

"SEE Pakistan 2025" Pakistan Özəl Universitetlər Assosiasiyası (APSUP) tərəfindən Superior Universiteti, Lahor Universiteti, Sialkot Universiteti və Yaşıl Beynəlxalq Universitet kimi nüfuzlu ali təhsil müəssisələrinin tərəfdaşlığı ilə təşkil edilən, minlərlə iştirakçını bir araya gətirən ölkənin ən böyük sahibkarlıq platformasıdır. Burada dünyanın müxtəlif ölkələrindən gəlmiş startaplar, investorlar, alimlər və tələbələr innovativ həllərini təqdim edərək, əməkdaşlıq imkanlarını müzakirə edirlər.

BDU-nun "Irrigo" layihəsi ekoloji dayanıqlı kənd təsərrüfatı sahəsində innovativ həll kimi böyük maraq doğurur. Layihə çərçivəsində suvarmada təmiz su sərfi minimuma endirilir, uyğun olmayan sular üzvi çirkləndiricilərdən, duzlardan və ağır metallardan təmizlənərək istifadəyə yararlı hala gətirilir və davamlı suvarma ekosistemi yaradılır.

BDU-nun "SEE Pakistan 2025"də iştirakı ölkəmizin innovasiya və startap ekosisteminin inkişafına, gənclərin beynəlxalq müstəvidə uğur qazanmasına və Azərbaycan–Pakistan dostluq münasibətlərinin güclənməsinə töhfə verir.

# Dövlət Proqramı və Hökumətlərarası Təqaüd Proqramlarının qalibi olan BDU məzunlarının bir qrupu ilə görüş

***Avqustun 21-də BDU-nun rektoru Elçin Babayev "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" və Hökümətlərarası Təqaüd Proqramlarının qalibi olan BDU məzunlarının bir qrupu ilə görüşüb.***



Rektor Elçin Babayev məzunları təbrik edib, onlara təhsil və şəxsi həyatlarında uğurlar arzulayıb. Rektor qeyd edib ki, BDU hər zaman öz məzunları ilə fəxr edib: "Hər bir universitetin ən böyük sərvəti onun tələbə və məzunlarıdır. BDU-nun ən böyük məzunu xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. BDU məzunları içərisində dövlət və hökumət nümayəndələri, Milli Məclisin üzvləri var. İndiyədək BDU ölkəmiz üçün 200 mindən artıq yüksəkixtisaslı mütəxəssis yetişdirib. Siz hazırda həyatınızda ikinci dönüş nöqtəsini yaşayırsınız, ilk dönüş noqtəsi ali məktəbə qəbul olmağınız olub. Siz qalib ölkəmizin gənclərisiniz, Azərbaycanımızın ən qüdrətli dövründə xaricə təhsilinizi davam etdirməyə gedirsiniz. Ölkəmizi, ailənizi, BDU-nu xarici ölkələrdə ləyaqətlə təmsil edəcəyinizə, Vətənimiz üçün peşəkar kadr kimi yetişəcəyinizə əminik".

Rektor məzunlara öz üzərlərində daha çox çalışmağı, özlərini inkişaf etdirməyi tövsiyə edib, BDU-nun hər zaman məzunları üçün doğma məkan olduğunu bildirib, Universitetdə məzunlarla iş üzrə nəzərdə tutulan layihələr barədə onlara məlumat verib.

Çıxış edən məzunlar xaricdə təhsil üzrə Dövlət Proqramının gənclər üçün böyük imkanlar yaratdığını vurğulayıb, BDU ilə daim əlaqə saxlayacaqlarına söz veriblər.

Qeyd edək ki, BDU-nun 46 məzunu dünyanın nüfuzlu universitetlərində magistratura, 5 məzunu isə doktorantura səviyyəsində təhsilini davam etdirəcək.

# BDU-nun 5 məzunu Dövlət Proqramı çərçivəsində dünyanın nüfuzlu universitetlərinin doktoranturasında təhsil alacaq

***BDU-nun 5 məzunu "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində 2025/2026-cı tədris ili üçün dünyanın nüfuzlu universitetlərinin doktoranturasında təhsil alacaq.***

BDU məzunu Xədicə Axundova Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının London Queen Mary Universitetində "Tibb mühəndisliyi", Zöhrab Əliyev Qlazqo Universitetində "Yer elmləri", Samirə İsmayılova Bristol Universitetində "Kimya", Edqar Şahbazov Mançester Universitetində "Molekulyar biologiya", Natiq Xamedov Türkiyənin İstanbul Universitetində "Kimya" ixtisasları üzrə təhsil almaq hüququ qazanıb.

Məzunlarımızı təbrik edir, fəaliyyətlərində uğurlar arzulayırıq!

Qeyd edək ki, Dövlət Proqramı çərçivəsində 2025/2026-cı tədris ili üzrə ümumilikdə 19 gənc dünyanın nüfuzlu universitetlərində doktorantura təhsili alacaq.

# BDU-ya qəbul olunanların 496 nəfəri 600-dən yuxarı bal toplayıb

***2025/2026-cı tədris ili üzrə Bakı Dövlət Universitetinə ilkin olaraq qəbul olan 5460 nəfərdən 496-sı 600-dən çox, 930-u 500-600 arası bal toplayıb.***

Ən yüksək nəticəni isə 697.5 balla "Hüquqşünaslıq" (tədris ingilis dilində) ixtisasına qəbul olan Çiçək Hümmətli göstərib.

# BDU-da qəbul planı ilkin olaraq 98,28 faiz dolub

***İlkin nəticələrə əsasən, 2025/2026-cı tədris ili üzrə Bakı Dövlət Universitetinə ayrılmış 5555 plan yeri 98,28 faiz dolub.***

Belə ki, BDU-nun bakalavriat səviyyəsinə 5460 nəfər qəbul olub. Onlardan 3913 nəfəri dövlət sifarişli, 1547-si isə ödənişli əsaslarla təhsil alacaq.

# BDU-nun dəstəyi ilə Qarabağ və Dilbaz at cinslərinin genetik xəritəsi hazırlanır

***Azərbaycan üçün strateji əhəmiyyətə malik Qarabağ və Dilbaz milli at cinslərinin genetik xəritəsinin hazırlanması məqsədilə kompleks tədqiqatlara start verilib.***

Layihə Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü, Bakı Dövlət Universiteti və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) dəstəyi ilə həyata keçirilir. Tədqiqatlarda Heyvandarlıq Elmi-Tədqiqat İnstitutu, Türkiyə Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyi, "Letgen Biotechnology" və "Bayramlı Group" şirkətləri də tərəfdaş qismində iştirak edir.

Layihənin əsas məqsədi Qarabağ və Dilbaz at cinslərinin genetik irsinin qorunması, onların genom səviyyəsində struktur və funksional müxtəlifliyinin araşdırılması, eləcə də gələcək seleksiya və damazlıq proqramlarının elmi əsaslarla qurulmasına töhfə verməkdir.

İlkin mərhələdə yerli mütəxəssislərlə yanaşı, Türkiyədən dəvət olunmuş ekspertlərin iştirakı ilə müxtəlif atçılıq təsərrüfatlarında fenotipik qiymətləndirmələr aparılıb, atlardan qan və tük nümunələri toplanılıb.

Bu nümunələrin təhlili nəticəsində elmi və praktiki hədəflər müəyyən olunub. İlk dəfə olaraq Qarabağ və Dilbaz at cinslərinin tam genom xəritəsinin hazırlanması, seleksiya və damazlıq işlərində marker-assosiasiyalı texnologiyaların (MAS) tətbiqi, genotip və fenotip arasında əlaqələrin müəyyənləşdirilməsi ilə seleksiya səmərəliliyinin artırılması, genetik məlumatların elektron məlumat bazasında (genobank) qorunması, araşdırma nəticələrinin beynəlxalq elmi verilənlər bazalarına, o cümlədən NCBI-ə inteqrasiyası nəzərdə tutulur.



# BDU-da “R.M 90” proqramlaşdırma müsabiqəsi keçirilib

***Avqustun 8-də İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, BDU, Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma Müsabiqəsinin (ICPC) Azərbaycan icması və “Caspian Event Organisers” şirkətinin birgə təşkilatçılığı ilə “R.M 90” proqramlaşdırma müsabiqəsi keçirilib.***





Gənc proqramçılar üçün keçirilən xüsusi müsabiqə Azərbaycanın ilk proqramçısı, “Şöhrət” ordenli alim, BDU-nun dosenti olmuş Ramin Mahmudzadənin irsini gənc nəslə çatdırmaq, onlara proqramlaşdırma sahəsində bilik və bacarıqlar qazandırmaq, yeni istedadları üzə çıxarmaq məqsədilə təşkil edilib.

Əvvəlcə Azərbaycan respublikasının Dövlət Himni səsləndirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda həlak olan şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilib.

Müsabiqənin açılış mərasimində çıxış edən BDU-nun elm və innovasiyalar üzrə prorektoru Hüseyn Məmmədov bildirib ki, rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanının yaradılması “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də nəzərdə tutulub. Ali təhsil müəssisələri üçün də tədqiqat, təhsil və sənaye üçlüyünün inkişafını təmin etmək qarşıda duran əsas vəzifələrdəndir. BDU ölkədə lider universitet mövqeyini qoruyub saxlamaqla yanaşı, regionda elmtəhsil üçün dünya səviyyəli platformaya çevrilməyi qarşısına hədəf qoyub. Kompüter və proqramlaşdırma elmləri BDU-da prioritet sahələrdən biridir, Universitetdə müasir səviyyədə Rəqəmsal tədqiqatlar laboratoriyası fəaliyyət göstərir. BDU həmçinin olimpiada hərəkatının aktiv iştirakçısıdır. Artıq üç ildir BDU ali məktəb tələbələri arasında Respublika Olimpiadaları keçirir. O, “R.M 90” proqramlaşdırma müsabiqəsinin də qeyd olunan məqsədlərə xidmət etdiyini bildirib, iştirakçılara uğurlar arzulayıb.

Azərbaycan Mərkəzi Bankı sədrinin müavini Vüsal Xəlilov ötən əsrin 70-ci illərinin əvvəllərində respublikada ilk dəfə olaraq proqramçı siniflərinin banisi olan və müstəqillik dövründə proqramlaşdırma istiqamətindəki beynəlxalq yarışların ilk iştirakçılarını hazırlayan Ramin Mahmudzadənin 90 illik yubileyinə həsr olunmuş belə bir müsabiqənin həm də hesabat xarakteri daşıdığını vurğulayıb. Ramin Mahmudzadə ilə bağlı xatirələrini bölüşən Vüsal Xəlilov onun şərəfli müəllimlik missiyasını yerinə yetirdiyini deyib: “Azərbaycan Mərkəzi Bankının “2024-2026-cı illərdə maliyyə sektorunun inkişaf Strategiyası”nda da rəqəmsal maliyyə təşəbbüsləri, innovasiyaların təşviqi ilə maliyyə xidmətlərinə əlçatanlığın artırılması, rəqəmsal infrastrukturun təhlükəsizliyinin təmin olunması üçün kibertəhlükəsizliyin gücləndirilməsi ilə maliyyə bazarlarının fəaliyyətinin dayanıqlılığının artırılması məsələləri əsas kimi götürülüb. Bunun üçün belə kadrlara ciddi ehtiyac var. Bu müsabiqə yüksək intellektə malik gəncləri tanıdacaq”.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi İdarə Heyətinin sədr müavini Şahin Əliyev müsabiqə barəsində məlumat verib. “R.M 90” proqramlaşdırma müsabiqəsinin bu il ilk dəfə olaraq Bakıda keçiriləcək ICPC 2025 Dünya Finalında azərbaycanlı qalibləri təqdim etmək məqsədi daşıdığını bildirib. Müsabiqə həmçinin “Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası”nın icrasını özündə ehtiva edir.

Sonra dosent Ramin Mahmudzadənin həyatından bəhs edən videoçarx nümayiş etdirilib.

“49-cu ICPC - Universitet Tələbələrinin Beynəlxalq Proqramlaşdırma Müsabiqəsi”nin Dünya Finalının direktoru Fuad Hacıyev və ICPC Azərbaycan İcmasının direktoru Etibar Seyidzadə müsabiqənin gənclərin bilik və bacarıqlarının inkişafı, yeni istedadların kəşf olunması və proqramçılar arasında əməkdaşlıq imkanlarının genişləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini deyib, müsabiqənin şərtləri və gedişatı haqqında məlumat veriblər.

Daha sonra müsabiqə öz işinə başlayıb. Müsabiqədə ali təhsil müəssisələrində təhsil alan və proqramlaşdırmaya marağı olan 50-yə qədər tələbə 4 saat ərzində verilmiş xüsusi proqramlaşdırma tapşırıqlarını həll ediblər.

Avtomatlaşdırılmış şəkildə aparılan qiymətləndirilmə mərhələsindən sonra müəyyən edilən ilk üç yerin qalibi 31 avqust – 5 sentyabr tarixlərində Bakıda keçiriləcək ICPC 2025 Dünya Finalı səhnəsində (Bakı Konqres Mərkəzində) xüsusi mükafat və sertifikatlarla təltif olunacaq.

# “BDU könüllüləri” təşkilatının Hüquq fakültəsinin tələbələri üçün silsilə təlim proqramı davam edir

***“BDU könüllüləri” təşkilatının və Hüquq fakültəsinin Mülki proses və kommersiya hüququ kafedrasının birgə təşkilatçılığı ilə ötən ilin mart ayından başlanılan silsilə təlim proqramı davam edir.***

Proqram çərçivəsində "Akademik yazı və etika kursu” adlı növbəti təlim keçirilib. Təlim Türkiyənin Ankara Hacı Bayram Vəli Universitetinin doktorantı, BDU-nun Kriminalistika və məhkəmə ekspertizası kafedrasının müəllimi Röyal Məhərrəmov tərəfindən keçirilib.

Təlimdə elmi araşdırmalarda istifadə olunan metodoloji yanaşmalar, akademik yazının strukturu, tədqiqat etikasının əsas prinsipləri və müxtəlif tədqiqat növləri - kəmiyyət və keyfiyyət metodlarının tətbiq sahələri izah olunub. Sonda iştirakçıların sualları cavablandırılıb, mövzu ətrafında müzakirələr aparılıb. Qeyd edək ki, bir ildən çoxdur davam edən təlimlərin ümumi saatı 150-ə çatıb. Təlimlər həm onlayn, həm də əyani formatda təşkil olunur. Bu günə qədər 3500-dən artıq tələbə bu proqramda iştirak edib. Təlimlər müxtəlif sahələr üzrə ixtisaslaşmış hüquqşünaslar, BDU-nun müəllimləri, hakimlər, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri, mediatorlar, notariuslar, həmçinin dövlət orqanları və kommersiya təşkilatlarının hüquqşünasları tərəfindən keçirilir.

# BDU əməkdaşları təhsil sərgisində abituriyentlər üçün infosessiya keçirib

***Avqustun 1-də BDU-nun əməkdaşları Dövlət İmtahan Mərkəzinin (DİM) təşkilatçılığı ilə ali təhsil müəssisələrinin sərgisi çərçivəsində abituriyentlər üçün infosessiya keçirib.***



İnfosessiyada BDU-nun Karyera və məzunlarla iş Mərkəzinin şöbə müdiri Günel Qurbanova və Tədrisin təşkili və idarə olunması Mərkəzinin Təcrübənin təşkili sektorunun müdiri Nərgiz Abbas abituriyentlərə ixtisas seçimi, BDU-nun təhsil və təcrübə imkanları, elmi və beynəlxalq əlaqələri, ikili diplom proqramları, tələbələrin sosial həyatı və karyera planlaması barəsində məlumat veriblər. Həmçinin Universitetin elmi-metodiki bazası və digər imkanları haqqında təqdimat ediblər. Sonda abituriyent və valideynlərin sualları cavablandırılıb.

# BDU-nun 46 məzunu Dövlət Proqramı çərçivəsində xaricdə magistratura səviyyəsi üzrə təhsillərini davam etdirəcək

***BDU-nun 46 məzunu “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022- 2028-ci illər üçün Dövlət Proqramı”nın iştirakçısı adını qazanıb və nüfuzlu universitetlərdə magistratura təhsili alacaq.***

2025/2026-cı tədris ili üçün xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində magistratura səviyyəsi üzrə təhsil almaq hüququ qazanan 356 nəfərdən 46-sı BDU məzunudur. Onlardan 23-ü Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı, 18-i Amerika Birləşmiş Ştatları, 2-si Sinqapur Respublikası, 1-i Avstraliya İttifaqı, 1-i İtaliya Respublikası, 1-i isə İsrailin məşhur universitetlərində təhsil alacaq.

BDU məzunları tərəfindən üstünlük verilən əsas ixtisas istiqamətləri hüquq və hüquqşünaslıq (o cümlədən beynəlxalq hüquq, korporativ hüquq, bank və maliyyə hüququ, əqli mülkiyyət və texnologiya hüququ, beynəlxalq arbitraj və mübahisələrin həlli), dövlət siyasəti və idarəçiliyi, maliyyə və iqtisadiyyat, kompüter elmləri və analitika (verilənlər elmi, tətbiqi statistika, tədris analitikası və kiber təhlükəsizlik mühəndisliyi), biotexnologiya və biotibbi mühəndislik, qrafik dizayn, eləcə də hesablama və tətbiqi riyaziyyatdır.

2026-cı il üzrə QS dünya reytinqinə əsasən məzunlarımızın 14-ü ilk onluqda, 25-i ilk iyirmilikdə, 44 nəfəri isə ilk yüzlükdə qərarlaşan ali təhsil müəssisələrində təhsillərini davam etdirəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq olunan Dövlət Proqramının əsas məqsədi gənclərə xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsilalma imkanları yaratmaqla, ölkəmizin dayanıqlı inkişafını təmin edəcək və qlobal çağırışlara cavab verəcək yeni texnologiyaları çevik mənimsəyən, praktiki bilik və bacarıqlara yiyələnən, müasir və gələcək əmək bazarının tələblərinə cavab verən rəqabətqabiliyyətli və yüksəkixtisaslı peşəkar kadrların hazırlanmasını təmin etməkdir.

# BDU və Yerusəlim İbrani Universiteti arasında “Biotexnologiya” ixtisaslaşması üzrə ikili diplom proqramına dair infosessiya

***Avqustun 5-i BDU ilə İsrailin Yerusəlim İbrani Universiteti (HUJI) arasında “Biotexnologiya” ixtisaslaşması üzrə magistratura səviyyəsində birgə ikili diplom proqramına dair infosessiya keçirilib.***




BDU rektorunun rəqəmsallaşma və informasiya texnologiyaları üzrə müşaviri Şəbnəm Səfərova və Beynəlxalq əlaqələr şöbəsinin müdiri Rauf Həsənov tərəfindən aparılan infosessiyada bildirilib ki, ikili diplom proqramı 2023-cü ilin may ayında imzalanmış müqaviləyə əsasən fəaliyyət göstərir və proqram üzrə bütün xərclər Azərbaycan Respublikası Dövlət Neft Fondu tərəfindən maliyyələşdirilir. Proqrama “Biologiya”, “Biologiya müəllimliyi”, “Kimya”, “Kimya müəllimliyi”, “Kimya mühəndisliyi”, “Fizika”, “Fizika müəllimliyi”, “Ekologiya” ixtisasları üzrə bakalavr dərəcəsi almış, Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) 80 və daha yuxarı, xarici dil biliyi minimum IELTS 6 (və ya TOEFL iBT 89+) səviyyəsində olan və 2025-ci ildə ökədəki ali təhsil müəssisələrinin birində magistraturaya qəbul olunan namizədlər qoşula bilərlər.

İnfosessiya zamanı tələbələrə sözügedən proqramın məqsədi və qazandıracağı imkanlar, proqrama qəbul qaydaları və sənəd qəbulu prosesi, HUJI-də təhsil və beynəlxalq akademik təcrübə, karyera üstünlükləri və qlobal perspektivlər haqqında ətraflı məlumat verilib.

Sonda tələbə və valideynlərin çoxsaylı sualları cavablandırılıb.

# Azərbaycan məktəbliləri XVIII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında uğur qazanıblar

***11–21 avqust tarixlərində Hindistanın Mumbay şəhərində keçirilən XVIII Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadasında (IOAA 2025) Azərbaycan məktəbliləri ölkəmizi uğurla təmsil ediblər.***

BDU-da V Azərbaycan Astronomiya Olimpiadasının qalibləri arasında keçirilmiş seçmə imtahan əsasında müəyyən edilən 5 nəfərlik Azərbaycan komandası olimpiadada iştirak edib. Komandanın nəzəri və praktiki hazırlığı BDU-nun müəllimləri tərəfindən olimpiadaya qədər davam etdirilib və şagirdlər bu hazırlıq prosesində yüksək səviyyədə bilik və bacarıq qazanıblar.

Olimpiada nəzəri və praktiki turlardan ibarət olub. Azərbaycan məktəbliləri 2 bürünc və 2 həvəsləndirici mükafat qazanıblar:

• Oqtay Lətifli (Bakı şəhəri Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Lisey, XI sinif) – bürünc medal

• Məhəmməd Cəfərli (Bakı şəhəri Texniki Humanitar Lisey, X sinif) – bürünc medal

• Raiq Babazadə (Bakı şəhəri Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Lisey, X sinif) – həvəsləndirici mükafat

• Aqil Güləliyev (Bakı şəhəri Fizika, Riyaziyyat və İnformatika Təmayüllü Lisey, XI sinif) – həvəsləndirici mükafat.

Azərbaycan məktəbliləri artıq 5 ildir ki, bu mötəbər yarışmada iştirak edir və bu müddət ərzində 11 dəfə fəxri ada və mükafata layiq görülüblər.



Beynəlxalq Astronomiya və Astrofizika Olimpiadası hər il ənənəvi olaraq təşkil olunur və nəzəriyyə, məlumatların təhlili, teleskoplardan istifadə və digər praktiki mərhələlərdən ibarət olmaqla, dünyanın nüfuzlu elmi olimpiadaları sırasında yer alır.

BDU, Təhsil İnstitutu və Tusi-Bohm Planetariumunun dəstəyi ilə həyata keçirilən bu layihələr gələcək alimlərin formalaşmasına və ölkəmizin elmi-intellektual inkişafına mühüm töhfə verir.

# Bakı Dövlət Universitetində qlobal naviqasiya peyk sistemləri üzrə beynəlxalq səviyyəli ekspertlər iclası işinə başlayır

***18 avqust 2025-ci il tarixində Bakı Dövlət Universitetində BMT-nin Xarici Kosmos Məsələləri üzrə Ofisinin (UNOOSA) və Beynəlxalq Qlobal Naviqasiya Peyk Sistemləri Komitəsinin (ICG) təşkilatçılığı ilə “Systems, Signals and Services” üzrə İşçi Qrupun (Working Group S) ekspertlər iclası öz işinə başlayıb.***




Beş gün davam edən tədbir çərçivəsində dünyanın aparıcı kosmik agentlikləri, dövlət qurumları, elmi mərkəzləri və nüfuzlu beynəlxalq təşkilatların ekspertləri BDU-da toplaşaraq qlobal naviqasiya peyk sistemlərinin inkişaf perspektivlərini müzakirə ediblər.

Tədbirin məqsədi peyk naviqasiyası üzrə mövcud çağırışların, yeni texnoloji imkanların və gələcək əməkdaşlıq istiqamətlərinin müzakirəsi, həmçinin qlobal miqyasda interferensiyanın azaldılması, siqnalların uyğunlaşdırılması, xidmət keyfiyyətinin yüksəldilməsi, zaman və dəqiqlik standartlarının inteqrasiyası, LEO-PNT texnologiyaları və Ay missiyaları üçün spektr uyğunluğu kimi məsələlər üzrə ekspertlər səviyyəsində təcrübə mübadiləsidir.

İclasda ABŞ, Çin, Yaponiya, Koreya Respublikası, Xorvatiya, Yeni Zelandiya və digər ölkələrin ekspertləri, o cümlədən UNOOSA-nın əməkdaşları iştirak edib. Müzakirələrdə həmçinin BDU və Avropadan bir sıra qurumların təmsilçiləri də yer alıb.

İşçi Qrupun iclasının gündəliyində müxtəlif mövzular üzrə paralel sessiyalar nəzərdə tutulub. İlk gün “Beynəlxalq GNSS Monitorinqi və Qiymətləndirilməsi” (IGMA) və “Zaman üzrə standartlar” mövzularında sessiyalar keçirib. Sonrakı günlərdə “İnterferensiyanın aşkarlanması və aradan qaldırılması”, “Uyğunluq və spektrin qorunması”, “Mülki siqnalların autentifikasiyası”, “Orbital tullantıların azaldılması”, “LEO-PNT texnologiyaları” və digər mühüm istiqamətlər üzrə müzakirələr aparıb.

Tədbir çərçivəsində həmçinin GNSS sistem təminatçıları tərəfindən yeniliklərin təqdimatı, müxtəlif ölkələrin təcrübələrinin paylaşılması və yeni tövsiyələrin qəbul olunması nəzərdə tutulub. Sessiyaların yekununda İşçi Qrup tərəfindən yeni qərar və tövsiyələr hazırlanaraq müvafiq beynəlxalq qurumlara təqdim edilib.

BDU-da belə bir mötəbər beynəlxalq tədbirin keçirilməsi Azərbaycan elm və təhsil mühitinin beynəlxalq əməkdaşlıqda artan rolunu nümayiş etdirir.

# BDU-da abituriyentlər üçün “Açıq qapı” günləri davam edir

***Bakı Dövlət Universitetində “BDU könüllüləri”nin təşkilatçılığı ilə “Açıq qapı” günləri davam edib.***



İyulun 28-dən başlayan “Açıq qapı” günlərində BDU-ya gələn abituriyentlər və onların valideynləri üçün Universitet ərazisində tanıtım turları təşkil olunur. İştirakçılar Universitetin tədris korpusları, kitabxanaları, elmi-tədqiqat və tədris laboratoriyaları, ərazidə yeni yaradılan müxtəlif məkanlarla tanış olublar.

Bununla bərabər, iştirakçıları üçün müxtəlif ixtisas sahələri üzrə Universitet əməkdaşları, professor-müəllim heyəti tərəfindən məlumatlandırıcı sessiyalar keçirilir, ixtisas seçimi ilə bağlı suallar cavablandırılıb. Həmçinin Universitetin təqdim etdiyi təqaüd imkanları, beynəlxalq proqramlar, könüllülük fəaliyyətləri və tələbə həyatı barədə də məlumat verilib. Qeyd edək ki, BDU-da abituriyentlər üçün “Açıq qapı” günləri avqustun 8-dək davam edib.

# Dünya Mediasında Qərəzli İnformasiya Siyasəti: Səbəblər və Təsirlər

***Müasir dövrdə informasiya güc, təsir və manipulyasiya vasitəsi kimi strateji əhəmiyyət daşıyır. Media qurumları cəmiyyətlərdə yalnız məlumat paylaşan platformalar deyil, həm də ictimai rəyin formalaşmasında mühüm rol oynayan təsir mexanizmləridir. Buna baxmayaraq, dünya mediasında bəzi hallarda qərəzli və birtərəfli yanaşma müşahidə olunur ki, bu da həqiqətlərin təhrif edilməsinə, stereotiplərin güclənməsinə və konfliktlərin dərinləşməsinə səbəb olur.***



Qərəzli informasiya siyasətinin arxasında duran səbəblər çoxşaxəlidir və müxtəlif faktorlarla izah olunur: siyasi və iqtisadi maraqlar, mədəniyyətlərarası fərqliliklər, informasiya müharibələri və media qurumlarının maliyyə strukturundakı problemlər. Bu cür yanaşmalar xüsusilə beynəlxalq məsələlərdə - münaqişələr, enerji siyasəti, insan haqları kimi mövzularda daha çox nəzərə çarpır.

İlk növbədə geosiyasi maraqlar bu səbəblərin başında gələn ən vacib məqamdır. Güclü dövlətlərin və beynəlxalq aktorların öz maraqlarını qorumaq üçün media üzərindən təsir göstərməsi günümüzün reallığıdır. Münaqişəli bölgələrdə tərəflərin müəyyən dövlətlərə və ya təşkilatlara yaxın olmasına görə qərəzli mövqelər nümayiş etdirilməsinin də mütəmadi şəkildə şahidi olmaqdayıq.

İkinci səbəb maliyyə və sahiblik faktorları ilə bağlıdır. Nəzərə almalıyıq ki, media qurumlarının əksəriyyəti böyük korporasiyalar və ya siyasi qruplar tərəfindən maliyyələşdirilir, nəticədə onların siyasi və iqtisadi maraqlarına uyğun təbliğatın təşkil edilməsi əsas məqam kimi ortaya çıxır. Bu isə olduqca önəmli faktordur. Qlobal informasiya məkanında aparıcı media korporasiyaların təsiri və informasiya axınına müdaxilələri, məhz həmin quruluşların müəyyən mövzulara aid üstünlük verdiyi narrativlərin hakim olmasına səbəb olur.

Stereotiplər və mədəni yanaşmalar digər vacib səbəb kimi götürülə bilər. Təəsüf ki, xüsusilə Qərbdə bəzi ölkələrə və xalqlara qarşı tarixi və ya mədəni stereotiplər mövcuddur. Bu özünü şərq xalqlarına və qərb mədəniyyətindən fərqli sivilizasiyaları təmsil edən xalqlara münasibətdə özünü aydın şəkildə göstərir. Eyni zamanda məlumatın kontekstdən çıxarılaraq təqdim olunması və ya müəyyən mədəniyyətlərə uyğunlaşdırılması halları da mövcuddur.

Dördüncü səbəb kimi informasiya müharibəsini qeyd edə bilərik. Birmənalıdır ki, bəzi ölkələr və təşkilatlar rəqiblərinə qarşı media vasitəsilə informasiya müharibəsi aparırlar. Bu dezinformasiya və manipulyasiyalarla müşayiət olunur.

Dünya mediasında qərəzli informasiya siyasəti qlobal arenada həqiqətlərin təhrif edilməsinə və ictimai rəyin manipulyasiyasına yol açır. Bu siyasətin arxasında duran səbəblər - geosiyasi maraqlar, iqtisadi təsirlər, mədəni stereotiplər və informasiya müharibələri - yalnız bir dövlət və ya qurumun təsir sferasından kənarda deyil, daha geniş miqyasda, qlobal güc balanslarının bir hissəsi kimi özünü göstərir.

Azərbaycana dair beynəlxalq mediada nümayiş olunan qərəzli yanaşmalar bu problemlərin konkret nümunəsidir. Ölkənin coğrafi mövqeyi, enerji resursları və strateji maraqları bəzi hallarda obyektiv informasiya axınının qarşısını alır. Bu isə ölkənin imicinə və beynəlxalq münasibətlərinə mənfi təsir göstərir.

Bununla belə, qərəzli informasiya siyasəti ilə mübarizə yalnız dövlətlər və təşkilatlar üçün deyil, həm də cəmiyyətlər üçün bir çağırışdır. Daha obyektiv və müstəqil media quruluşunun təşviq edilməsi, media savadlılığının artırılması və məlumat mənbələrinin müxtəlifliyinin təmin edilməsi bu problemin həllində mühüm addımlar ola bilər. Eyni zamanda, qlobal informasiya mühitində balanslı və ədalətli yanaşma təmin edilmədən davamlı sülh və tərəqqi mümkün görünmür.

Bu kontekstdə Azərbaycan kimi ölkələr həm öz milli maraqlarını qorumaq, həm də beynəlxalq ictimaiyyətə daha obyektiv informasiya təqdim etmək üçün fəal informasiya strategiyaları hazırlamalıdır.

***Vüqar Ziflroğlu***
*Jurnalistika fakültəsinin dekanı*

# Dövlət Proqramı ilə xaricdə doktorantura təhsili alan BDU məzunu Universitetdə işlə təmin olunub

***BDU-nun Dövlət Proqramı ilə xaricdə doktorantura təhsili alan məzunu Asif Mustafayev Universitetdə işlə təmin olunub.***



Asif Mustafayev 2005-ci ildə BDU-nun Hüquq fakültəsinin bakalavriat səviyyəsini bitirib. O, 2006-cı ildə hərbi xidməti başa vurduqdan sonra Ədliyyə Nazirliyində qulluğa qəbul olunub və 2013-cü ilə qədər nazirliyin yerli qurumlarında müxtəlif vəzifələrdə çalışıb, II dərəcəli ədliyyə qulluqçusu rütbəsi alıb. Asif Mustafayev 2014-2017-cü illərdə Almaniyanın Köln Universitetinin Hüquq fakültəsində “Dövlət, Avropa və beynəlxalq hüquq” ixtisası üzrə magistratura təhsili alıb və oranı fərqlənmə diplomu ilə bitirib.

2018-ci ildə Vəkillər Kollegiyasının üzvü seçilən Asif Mustafayev 2019-cu ildə saathesabı qaydada BDU-nun Hüquq fakültəsinin magistratura səviyyəsinin alman dili bölməsinin tələbələrinə “Avropa ətraf mühit hüququ” və “Avropa xüsusi hüququ” fənlərini tədris edib. Asif Mustafayev 2019-cu ildə “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində Köln Universitetinin doktoranturasına qəbul olunub və 2023-cü ildə “Almaniya və Azərbaycanda kibercinayətkarlıq sahəsində qanunvericiliyin regional və beynəlxalq normativ tələblərin nəzərində müqayisəli təhlili” mövzusunda doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə edib. 2024-cü ildə Köln Universitetinin Hüquq fakültəsi tərəfindən ona hüquq doktoru elmi dərəcəsi verilib.

Asif Mustafayev 2020-ci ildən etibarən Ədliyyə Akademiyası, Baş Prokurorluğun Təlim-Tədris Mərkəzi, Vəkillər Kollegiyasının Akademiyası, Mərkəzi Bank və digər qurumlarda “Kibercinayətkarlıq”, “Uşaqların onlayn cinsi istismarı”, “Süni intellekt, hüquq və etika”, “Rəqəmsallaşma və cinayət prosesi” kimi mövzularda mühazirələr oxuyub, təlimlər keçib. O, Vəkillər Kollegiyası nəzdində yaradılmış Kibercinayətkarlıq Komitəsinin sədri, Avropa Vəkillər Kollegiyasının “Elm və Avropa hüququ” Komitəsinin, Almaniyada müxtəlif təhsil qurumlarının təmsil olunduğu Süni İntellekt İşçi Qrupunun üzvüdür. Asif Mustafayev 2016-2019-cu illərdə Almaniya Federal Miqrasiya İdarəsində tərcüməçi-mütəxəssis, 2022-2025-ci illərdə isə bu ölkənin Bremen şəhərində özəl təhsil müəssisəsində pedaqoji fəaliyyətlə məşğul olub.

Elmi-pedaqoji fəaliyyəti və təşkilati işlər üzrə bacarıqları nəzərə alınaraq, Asif Mustafayev Hüquq fakültəsinin nəzdində Hüquq klinikasının rəhbəri təyin olunub.

# Abituriyentlər BDU-da təhsil imkanları barədə məlumatlandırılıb

***Avqustun 1-də BDU-nun tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru Fərda İmanov Dövlət İmtahan Mərkəzinin təşkilatçılığı ilə ali təhsil müəssisələrinin sərgisi çərçivəsində abituriyentlərə təlim keçib.***

Təlimdə BDU-nun prorektoru Universitetin son illərdə beynəlxalq reytinq sıralamalarında Cənubi Qafqazda birinci olduğunu diqqətə çatdırıb. Bu, tədrisin və elmi tədqiqatların keyfiyyətinin artırılması ilə birbaşa bağlı olan göstəricidir. Bildirib ki, BDU ölkənin əmək bazarı üçün ixtisaslı kadrların hazırlanması işini yüksək peşəkarlıqla həyata keçirir. İxtisas seçimi zamanı belə məsələlərə diqqət etmək önəmlidir. BDU ailəsinin üzvünə çevrilmək istəyən gənclərə tədrisin, elmin, tədqiqatın və sosial həyatın hər bir sahəsində şərait yaradılır. Bununla bərabər, Universitetin maddi-texniki bazası da ildən-ilə inkişaf etdirilir, elmi-tədqiqat və tədris laboratoriyaları ən son texnologiyalarla təchiz olunur.

Sonda Fərda İmanov abituriyent və valideynlərin suallarını cavablandırıb.

# Maarif Cəfərov - Gücünü füsunkar təbiətdən alan alim

***4 avqust Azərbaycan Fizika elminin tanınmış nümayəndələrindən biri, Bakı Dövlət Universitetinin Nanomaterialların kimyəvi fizikası kafedrasının müdiri, fizika-riyaziyyat elmləri doktoru, professor Maarif Cəfərovun 65 illik yubileyidir.***

Hər bir xalqın gələcəyi onun elm və təhsilinin inkişafı ilə bağlıdır. Elm - bəşəriyyəti zirvələrə aparan işıqlı bir yoldur. O, tərəqqini təmin edən, sivilizasiyaların inkişafına istiqamət verən ən güclü mənəvi dayaqdır. Zaman keçdikcə hər şey - texnologiyalar, cəmiyyətlər dəyişir. Lakin elmin missiyası dəyişmir - insanı düşündürmək, dərk etdirmək və kamilliyə aparmaq. Təhsil bu böyük missiyanın həyata keçirilməsində əsas vasitədir - o, cəmiyyətin mənəvi sütunu, bilik və mədəniyyətin daşıyıcısıdır. Əsrlər boyu elm və təhsil birgə, bir-birini tamamlayaraq, bəşəriyyətin mənəvi simasını formalaşdırıb. Bu müqəddəs yolun davamçıları - alimlər və müəllimlər - bilikləri nəsildən-nəslə ötürməklə tarixi məsuliyyəti üzərlərinə götürmüş əsl fədailərdir. Bu şərəfli ənənəni ləyaqətlə və uğurla davam etdirən ziyalılardan biri də Maarif Cəfərovdur.

Maarif Əli oğlu Cəfərov 4 avqust 1960-cı ildə Azərbaycanın dilbər guşələrindən biri olan, füsunkar təbiəti ilə insanın qəlbini oxşayan Laçın rayonunun Minkənd kəndində anadan olub. Bu kənd təkcə səfalı təbiəti ilə deyil, həm də elə-obaya bağlı olan, böyüyün və kiçiyin yerini bilən, elmə və təhsilə böyük önəm verən mərd və saf insanları ilə də tanınır. Maarif Cəfərov məhz belə bir mühitdə, ziyalı bir ailədə - Laçın rayonunda böyük hörmət qazanmış, ömrünü gənc nəslin təlim və tərbiyəsinə həsr etmiş və bu gün də adı ehtiramla çəkilən Əli müəllimin ailəsində dünyaya göz açıb. Deyirlər ki, insanın formalaşmasında doğulub boya-başa çatdığı mühitin təsiri danılmazdır. Maarif Cəfərov isə elə bir mənzərəli diyarda dünyaya göz açıb ki, bu yerlərin təbiəti - saf havası, büllur kimi təmiz suyu, gözoxşayan füsunkarlığı insanın ruhunu oxşayır. Belə bir məkanda dünyaya göz açmaq, təbiətin saflığını içində daşımaq onun şəxsiyyətinin formalaşmasına zəmin yaradıb.

Maarif Cəfərov 1967-1977-ci illərdə Minkənd orta məktəbində təhsil alıb və orta məktəbi əla qiymətlərlə bitirib. 1977-ci ildə Bakı Dövlət Universitetinin (BDU) Fizika fakültəsinə daxil olub, 1982-ci ildə BDU-nu fizik, fizika müəllimi ixtisasları üzrə fərqlənmə diplomu ilə bitirib. 1982-1986-cı illərdə Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Fizika İnstitutunun aspirantı olub. 1989-cu ildə “Cd1-xZnxS nazik təbəqələrinin və n və p-tip SdS:Cu monokristallarının fotoelektrik xassələri” mövzusunda dissertasiya işini müdafiə edərək "Yarımkeçiricilər və dielektriklər fizikası" ixtisası üzrə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsini alıb. 2007-ci ildə



“AIIBVI tipli bəzi birləşmələrinin monokristallarında və onların bərk məhlullarında kimyəvi çökdürülmüş təbəqələrində elektron prosesləri” mövzusunda dissertasiya işini müdafiə edərək "Yarımkeçiricilər və dielektriklər fizikası" ixtisası üzrə fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini alıb. 2009-cü ildə dosent, 2010-cü ildə isə professor elmi adını alıb.

Maarif Cəfərov 1982-1991-ci illərdə Tətbiqi Fizika Elmi Tədqiqat İnstitutunda (ETİ) mühəndis, 1991-1993-cü illərdə AMEA-nın Fotoelektronika Elmi Tədqiqat İnstitutunda böyük elmi işçi, 1994-2005-ci illərdə BDU-nun Fizika fakültəsinin nəzdində Bərk cisimlər Elektronikası Elmi-Tədqiqat laboratoriyasının müdiri, 2005-2010-cü illərdə BDU-nun nəzdində Fizika Problemləri ETİ-də aparıcı elmi işçi, 2010-2023-cü illərdə BDU-nun Fizika fakültəsinin Yarımkeçiricilər fizikası kafedrasında professor vəzifələrində çalışıb. 2023-cü ildən Nanomaterialların kimyəvi fizikası kafedrasına rəhbərlik edir.

Maarif Cəfərovun elmi fəaliyyəti çoxşaxəli olub, müasir fizikanın bir çox bölmələrini əhatə edir. O, yarımkeçiricilər fizikası, bərk cisim elektronikası, mikroelektronika, nanoelektronika, nanotexnologiya, bərk məhlullar əsasında nazik təbəqələrin alınma texnologiyaları sahələrində elmi tədqiqatlar aparır. Onun elmi araşdırmaları AII(III)BVI tipli bəzi birləşmələrin monokristallarının və onların bərk məhlullarının kimyəvi metodla alınmış nazik təbəqələrinin və nanohissəciklərinin elektron xassələrinin tədqiqinə, kesterit tipli Cu2Zn(Cd)SnS(Se, Te)4 birləşmələrinin kimyəvi və elektrokimyəvi üsullarla alınmış nazik təbəqələri və onların əsasında strukturlarda elektron proseslərinin öyrənilməsinə, perovskit tipli CH3NH3Pb(Sn)I(Cl)3 təbəqələrinin alınma texnologiyasının işlənilməsinə və onların struktur, optik, lüminessessiya xassələrinin tədqiqinə, lazer ablyasiya metodu ilə alınmış CdS, CdTe, CdSTe, InSe, GaS, GaSe nanohissəciklərinin, nüvə-örtük tipli strukturların, nanoheterokeçidlərin əsas xüsusiyyətlərinin hər tərəfli təhlilinə həsr olunub. O, ilk dəfə p-tip keçiricilikli CdS təbəqəsi alıb və onun əsasında p-n keçid, optik filtr, fotoqəbuledici hazırlayıb.

Maarif Cəfəovun elmi yaradıcılığında aşağıdakı elmi istiqamətlər mühüm yer tutur: AIIBVI birləşmələrinin nanoölçülü təbəqələrinin alinmasının ümumi texnoloji xüsusiyyətlərinin təhlili, ilkin reaktivlərin AIIBVI tip nazik təbəqələrinin fiziki xüsusiyyətlərinə təsirinin tədqiqi, təbəqələrin böyümə kinetikası və termik stabilliyinin araşdırılması, nanoölçülü təbəqələrin kimyəvi və elektrokimyəvi çökdürmə texnologiyasının təkmilləşdirilməsinin fiziki-kimyəvi əsasları, eləcə də təbəqələrin formalaşmasının fiziki-kimyəvi xüsusiyyətlərinin və qanunauyğunluqlarının öyrənilməsi, alınmış materialların elektrik, optik, fotoelektrik xassələrinin və bu materiallar əsasında yaradılan metal-yarımkeçirici, p-nkeçid, heterokeçid və çoxtəbəqəli strukturlarda cərəyankeçmə mexanizmlərinin tədqiqi. O, CdS, CdTe, ZnS, ZnS1-xSex, ZnS1-xTex, Zn1-xCdxS nanohissəciklərinin sulu və müxtəlif qatqılı məhlullarında, polietilenqlikol (PEQ), polivinilpirolidon (PVP), polidialildimetilammonium xlorid (PDDA) polimerlərində kimyəvi, hidro-, elektro-kimyəvi çökdürmə və lazer ablyasiya metodları ilə alınma texnologiyasının elmi əsaslarını işləyərək həyata keçirib, silisium dioksid və silisium karbid nanohissəcikləri əsasında kompozitlərin termal, optik və dielektrik xassələrini araşdırıb və nanohissəciklərin kompozitlərin xassələrinə təsir mexanizmini öyrənib. Bir sıra nanoquruluşlu təbəqələrin yüksək həssaslığının təmin edilməsi üçün optimal tərkib, alınma və termik emal rejimlərini müəyyənləşdirib; “kompleks-nanoquruluşlu təbəqə-quruluş defekti-xassə” korrelyasiyası hesabına alınmış təbəqələrin xassələrinin tətbiq olunan metodikanın digər üsullarla müqayisədə daha geniş intervalda dəyişməyə imkan verdiyini göstərib.

Maarif Cəfərov çoxillik gərgin elmi-tədqiqatlar nəticəsində bərk cisim elektronikası və nanofizika sahəsində yeni bir elmi istiqamət yaradıb: P-CdS, ZnS, CdZnS, CdS/ZnS, CdS:Cu (Mn), ZnS:Cu (Mn, Co və Cr) təbəqələri və nanohissəcikləri alaraq, onların optik və fotolyüminessensiya xüsusiyyətlərini analiz edib, fotolyüminessensiya mərkəzlərinin təbiətini müəyyən edib və mexanizmini verib. Kimyəvi metodla alınmış AIIBVI birləşmələrinin nazik təbəqələrində rekombinasiya və relaksasiya proseslərini tədqiq edib, termo, elektrotermo-, fotostimulyasiya prosesini şərtləndirən mərkəzlərin təbiətini öyrənib, nazik təbəqələrdə fotokimyəvi reaksiyaların, optoneqatron hadisələrin, o cümlədən mənfi fotokeçiricilik, mənfi fototutum qalıq keçiriciliyi, mənfi fototutum effektlərinin vahid elektron-molekulyar mexanizmini verib, nazik təbəqəli elementlərdə yaddaş və çevirmə effektlərinin fiziki-kimyəvi modelini qurub. Elektrokimyəvi üsulla alınmış Si-Zn1-xCdxS, p-Si/ZnS1-xSex, məsaməli Si/Nano-CdS, məsaməli Si/Zn1-xCdxSe və Si/CdSe/Zn1-xCdxSe heterokeçidlərin əsas xüsusiyyətlərini araşdırıb, vahid texnologiya ilə elektrokimyəvi metodla alınmış p-CdTe/Zn1-xCdxSe, Al/r-CdS-ZnSe1-xTex və CuInGaSe2 - Cd1-xZnxS heterokeçidlərdə cərəyankeçmə mexanizmlərini müəyyən edib. O, apardığı elmi tədqiqatlar nəticəsində çoxtəbəqəli strukturlardan olan Al/n-CdS/p-CdTe/CdZnS/In-də elektronların ikitərəfli injeksiyasına, Al/p-CdS/n-CdTe/CdZnS/In-də elektronların tunel yolu ilə yüksək konsentrasiyaya malik deşiklərlə rekombinasiyasına, potensial çəpərin hündürlüyünün artmasına, zəif işıqlanmada yükdaşıyıcıların toplanmasına, işıqlanma ilə idarə olunan tunel diodu və güclü işıqlanmada daha böyük foto elektrik hərəkət qüvvəsinin yaranmasına, spektral həssaslıq oblastının daha geniş olmasına, eyni kristallik quruluş, rekombinasiya cərəyanının azalmasına, düzləndirmə əmsalının daha böyük qiymətə malik olmasına, parametrlərinin stabilliyi və deqradasiya sürətinin kəskin azalmasına nail olub.

Maarif Cəfərov bir çox beynəlxalq konfranslarda məruzə ilə çıxış edərək universitetimizi və respublikamızı layiqincə təmsil edib. Respublika və xarici ölkələrin elmi mətbuatında dərc olunmuş 300-dən çox elmi işin, 4 müəlliflik şəhadətnaməsinin, 2 patentin və 5 kitabın müəllifidir. Rəhbərliyi ilə 5 nəfər fəlsəfə doktoru dissertasiya işini müdafiə edib. Fizika fakültəsinin Elmi Şurasının üzvüdür. 2019-cu ildə "BDU-nun 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunub. 2024-cü ildə isə Türkiyənin Ankara şəhərində fəaliyyət göstərən Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü seçilib və Akademiyanın “Qızıl Ulduz” medalı ilə təltif olunub.

Alim ömrü - tamam başqa bir aləmdir, müəllim ömrü isə özünəməxsus müqəddəsliyi ilə seçilir. Ancaq həyatda yalnız Maarif müəllim kimi nadir insanlar tapılır ki, bu iki ömür yolunu birləşdirə bilsin. Belə bir vəhdət - həm biliklə zənginləşən, həm də öyrətmək eşqi ilə işıqlanan bir həyat tərzidir. Alim - həm sözün həqiqi mənasında, həm də mənəvi-ictimai anlamda müəllimdir. Ürəyində daima öyrətmək istəyi ilə alışıb-yanan, hər bir sözünü işığa çevirmək istəyən müəllim də əsl alimdir. Bu iki ali peşə arasında sərhəd çox incədir - onları birləşdirən isə zəka, fədakarlıq və kamil insanlıqdır. Doğrudan da, insanın şəxsiyyət kimi əsl dəyəri onun elmə, ziyalılığa və mənəvi kamilliyə bağlılığı ilə ölçülür. Bu çətin, məsuliyyətli, eyni zamanda son dərəcə şərəfli missiyanı öz ömrünün əsas məzmununa çevirən ziyalılar cəmiyyətin əxlaqi və intellektual sütunları kimi çıxış edirlər. Onlar yalnız bilik və təcrübə ilə deyil, həm də yüksək insani keyfiyyətləri ilə seçilir, bəşəri dəyərlərin yaşadılması və zənginləşdirilməsi naminə misilsiz xidmətlər göstərirlər. Bu keyfiyyətlər Maarif müəllimin də həyat mövqeyinin, mənəvi aləminin və fəaliyyət yolunun ayrılmaz tərkib hissəsidir.

Xeyirxahlıq, dürüstlük və mənəvi bütövlük üzərində qurulmuş bir ömür yolu yalnız sahibini deyil, bütöv bir cəmiyyəti zənginləşdirir, maarifləndirir, ilhamlandırır. Zəka və savad insanı alim edə bilər, lakin böyük şəxsiyyət olmaq üçün bundan qat-qat artıq keyfiyyətlər tələb olunur. Əsl ziyalılıq yalnız biliklə ölçülmür - o, mənəvi bütövlük, yüksək insani keyfiyyətlər, sadəlik və səmimiyyət kimi dəyərlərlə tamamlananda kamil insana çevrilir. Maarif Cəfərov məhz bu ali keyfiyyətləri öz şəxsiyyətində cəmləşdirmiş, ömür yolu ilə nümunə olmuş ziyalılardandır. Onun həyat fəlsəfəsinin mərkəzində insanlıq, ədalət və vicdan dayanır. Maarif müəllimi fərqləndirən təkcə dərin elmi bilikləri deyil, həm də çevrəsində yaratdığı inam və ehtiram mühitidir. O, insanlara qarşı münasibətində daim ədalətli, prinsipial və eyni zamanda səmimi olmuş, sadəliyi və təvazökarlığı ilə qəlblərdə yer qazanmışdır. Maarif müəllimə olan hörmət yalnız onun elmi uğurlarına deyil, həm də daxili mədəniyyətinə, mənəvi zənginliyinə, nümunəvi davranışına və əməllərinə bağlıdır. O, həyatını yalnız özünə deyil, bütöv bir cəmiyyətin mənəvi yüksəlişinə həsr etmiş əsl ziyalı və kamil bir insandır. Geniş elmi diapazona və zəngin pedaqoji təcrübəyə malik olan Maarif Cəfərov özünə və ətrafdakılarına qarşı tələbkarlığı, qayğıkeşliyi, sadəliyi və işgüzarlığı ilə elmi ictimaiyyətinin dərin hörmət və nüfuzunu qazanıb.

Əziz Maarif müəllim, Fizika fakültəsi ailəsi olaraq Sizi bu əlamətdar gün - 65 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edirik. Uğurlu və mənalı ömrünüz, elmi və pedaqoji fəaliyyətiniz, ziyalılığınız və nümunəvi şəxsiyyətinizlə qazandığınız hörmət və ehtiram daim Sizinlə olsun. Sizə möhkəm cansağlığı, uzun ömür, elmi yaradıcılıqda yeni-yeni nailiyyətlər və şəxsi həyatınızda daimi səadət arzulayırıq. Qoy ətrafınızda hər zaman Sizi sevən, Sizə dəyər verən səmimi insanlar olsun. Ömrünüzü 70-ə, 80-ə, 90-a, 100-ə… doğru aparan yolda hər zaman bir yerdə olmaq diləyi ilə - Yubileyiniz mübarək!

***Bəxtiyar Paşayev***
*Fizika fakültəsinin dekanı*
***Məmməd Rəcəbov***
*Nəzəri fizika kafedrasının müdiri*

# BDU-da “Qarabağ və Dilbaz at cinslərinin genetik xəritəsinin hazırlanması” layihəsinə dair metodoloji müzakirələr keçirilib

***Avqustun 29-də BDU-da Kənd Təsərrüfatı Nazirliyinin təşəbbüsü, BDU, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və Baytarlıq Elmi-Tədqiqat İnstitutunun dəstəyi, “Letgen Biotechnology” və “Bayramlı Group” şirkətlərinin tərəfdaşlığı ilə həyata keçirilən “Qarabağ və Dilbaz at cinslərinin genetik xəritəsinin hazırlanması” layihəsinə dair metodoloji müzakirələrlə bağlı görüş keçirilib.***



Açılış nitqi ilə çıxış edən BDU-nun rektoru Elçin Babayev layihənin milli və elmi əhəmiyyətindən danışaraq, BDU-nun bu təşəbbüsə göstərdiyi dəstəyin strateji xarakter daşıdığını qeyd edib. Bildirib ki, universitet alim və tədqiqatçılarının bu prosesdə iştirakı ölkənin elmi potensialını gücləndirir və layihənin nəticələri həm milli, həm də beynəlxalq əməkdaşlıqlar üçün yeni imkanlar yaradacaq.

Kənd təsərrüfatı nazirinin müşaviri Zaur Əliyev çıxışında dövlət və özəl sektor tərəfdaşlığının əhəmiyyətindən danışıb. Layihənin yalnız elmi nəticələri ilə deyil, həm də dövlət qurumları, universitetlər və özəl şirkətlər arasında qurulan əməkdaşlıq modeli ilə seçildiyini və bu yanaşmanın aqrar sektorda innovativ texnologiyaların tətbiqini daha da sürətləndirəcəyin bildirib.

FAO-nun Azərbaycandakı nümayəndəsi Muhammad Nasar Hayat layihənin beynəlxalq təsirindən söz açaraq, Qarabağ və Dilbaz at cinslərinin genetik xəritələndirilməsinin təkcə milli deyil, həm də qlobal əhəmiyyət daşıdığını deyib. Qeyd edib ki, layihənin nəticələrinin beynəlxalq elmi bazalarda paylaşılması Azərbaycanın dünya elmi ictimaiyyətində mövqeyini möhkəmləndirəcək və genetik irsin qorunmasına qlobal səviyyədə töhfə verəcək.

“Bayramlı Group” şirkətinin Elmi Araşdırmalar departamentinin müdiri Dürdanə Rəcili layihənin məqsədləri, ilkin mərhələdə görülmüş işlər və əldə olunan nəticələr barədə məruzə edib. O, xüsusilə Qarabağ və Dilbaz atlarından bioloji nümunələrin (qan və tük) toplanması, onların DNT izolyasiyası və ilkin analizlərin aparılması prosesinə diqqət çəkib. Eyni zamanda layihədə istifadə ediləcək metodologiyanın elmi əsasları barədə geniş təqdimatla çıxış edib.

Tədbirdə Kənd Təsərrüfatı Nazirliyinin “Heyvandarlığın təşkili və monitorinqi” şöbəsinin müdiri Bayandur Rzayev, Molekulyar Biologiya və Biotexnologiya İnstitutunun direktoru, akademik İradə Hüseynova, FAO nümayəndələri, Nazirliyin müxtəlif qurumlarının təmsilçiləri, Baytarlıq Elmi Tədqiqat İnstitutu əməkdaşları və BDU-nun professor-müəllim heyəti iştirak edib.

Müzakirə sessiyasında qonaqlar layihənin metodologiyası ilə bağlı fikir və təkliflərini səsləndirərək gedişat üzrə elmi müzakirələr aparıblar. Layihənin ekspertləri – KTN Baytarlıq Elmi Tədqiqat İnstitutunun direktoru Siyalə Rüstəmova və ADA Universitetinin dosenti Asəf Ömərov təqdim edilən metodoloji yanaşmalara dair elmi rəylərini bölüşüblər.

Qeyd edək ki, tədbirdə Türkiyə Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin nümayəndələri də onlayn formada iştirak ediblər. Onlar nümunə toplanması mərhələsində layihə komandasına dəstək göstərərək öz təcrübə və tövsiyələrini paylaşıblar.

Sonda BDU rektorunun strateji inkişaf və əlaqələr üzrə müşaviri Xalid Bayramlı layihənin yalnız elmi nəticələrinə görə deyil, həm də milli-mədəni irsimizin qorunması baxımından strateji əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd edib ki, Qarabağ və Dilbaz at cinslərinin genetik xəritələndirilməsi Azərbaycanın zəngin irsinin gələcək nəsillərə ötürülməsi və qlobal elmi ictimaiyyətə inteqrasiyası üçün mühüm rol oynayacaq.

# Bakı Dövlət Universitetində “Ərəb dili ayı” çərçivəsində təlimlər uğurla başa çatıb

***Avqustun 22-də Səudiyyə Ərəbistanı Krallığında fəaliyyət göstərən Kral Salman adına Beynəlxalq Ərəb Dili Akademiyasının təşəbbüsü ilə Azərbaycanda elan olunan “Ərəb dili ayı” çərçivəsində BDU keçirilən intensiv təlimlər öz işini uğurla yekunlaşdırıb.***




Dörd gün davam edən proqram ərəb dilinin tədrisi sahəsində həm nəzəri, həm də praktiki biliklərin möhkəmləndirilməsinə xidmət edib. Təlimlərə ümumilikdə 50-yə yaxın müəllim və 110-dan çox tələbə qatılıb ki, bu da ölkəmizdə ərəb dilinə marağın artdığını və ixtisaslı mütəxəssislərə ehtiyacın gücləndiyini bir daha göstərir.

Proqram çərçivəsində iştirakçılar ikinci dilin tədrisində tətbiq olunan ən mühüm nəzəriyyə və metodlarla tanış olub, mikro-tədris üsulları vasitəsilə dərs planlarını hazırlayıb və onları dərs prosesində tətbiq etmə bacarıqlarını inkişaf etdiriblər. Eyni zamanda, kommunikativ yanaşmalar, onların müxtəlif formaları və dil öyrətmədə texnologiyanın rolu barədə müasir biliklər əldə ediblər, dinləmə və danışma bacarıqlarını inkişaf etdirməyə yönəlmiş xüsusi praktik məşğələlərdə iştirak ediblər. Həmçinin, ərəb dünyasında fəaliyyət göstərən aparıcı təhsil kanalları, xüsusilə "YouTube" platformasında yayımlanan “Al Arabiya Al Alam” kimi resursların imkanları ilə tanış olublar.

Bununla yanaşı, təlimlər iştirakçılara öz peşəkar təcrübələrini qiymətləndirmək, müzakirələrdə fəal iştirak etməklə tənqidi yanaşma formalaşdırmaq və pedaqoji fəaliyyətlərdə mənfi tendensiyalardan qaçma yollarını öyrənmək imkanı yaradıb.

Təlimlərə İmam Məhəmməd ibn Səud Universitetinin professoru Saleh Nasser Al-Şuvairkh və Mədinə İslam Universitetinin dosenti Maher Dakhil Allah Al-Sa’edi rəhbərlik ediblər. Onların iştirakı tədris proqramına beynəlxalq təcrübə qazandırmaqla yanaşı, müəllim və tələbələrin müasir yanaşmaları praktikada sınamasına şərait yaradıb.

Bakı Dövlət Universitetində “Ərəb dili ayı” çərçivəsində keçirilən bu kurslar ərəb dili müəllimlərinin peşəkar hazırlığının yüksəldilməsinə, tələbələrin praktik dil bacarıqlarının inkişafına və ümumilikdə ölkəmizdə ərəb dili tədrisinin keyfiyyətinin artırılmasına mühüm töhfə verdi. Layihə həmçinin Azərbaycan–Səudiyyə Ərəbistanı elmi-mədəni əməkdaşlığının dərinləşməsinə xidmət edən uğurlu təşəbbüslərdən biri kimi dəyərləndirilir.

**Buraxılışa məsul:**
Afaq Sadıqova

**Redaksiya heyəti:**
Əliş Ağamirzəyev
Vüqar Əliyev
Cahangir Məmmədli
Qulu Məhərrəmli
Xatirə Hüseynova
Samir Mirzəyev
Günel Orucəliyeva

**Dizayn - tərtibat:**
Aynur Qurbanqızı

Bakı Dövlət Universitetinin Nəşr Evində çap olunmuşdur.

**Çapa imzalanıb:**
29.08.2025
**Tiraj:** 1000 nüsxə

Redaksiyanın mövqeyi ilə müəlliflərin mövqeyi üst-üstə düşməyə bilər.

Dərc olunan məqalələrin mətninə görə redaksiya məsuliyyət daşımır.

**Əlaqə nömrəsi:**
(+994 12) 538 42 08